www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 sentyabr 2016-cı il Bazar ertəsi № 196 (6517) Qiyməti 60 qəpik

Xəbər

## Bakıda dəhşətli avtoqəza: bir ailədən 3 nəfər öldü

yazısı səh.2-də

Gündəm

### Elman Rüstəmovun "Planet"i əhalini etiraza qaldırır



Sakinlər deyir ki, baş bankirin qardaşının idarə etdiyi restoran yolkəsənliklə yanaşı, onları "səs terroruna" məruz qoyur: "...Yolu bağlayacağıq"...

yazısı səh.3-də

### Şirvandakı hərbi zavodda partlayışdan 40 gün ötdü

yazısı səh.5-də

### AXCP Müsavatla danışıqlardan imtina etdi

yazısı səh.10-da

### Referendum təşviqatının dördüncü günü-rəqabət yoxdur...

yazısı səh.5-də

### "AXA MBASK" vətəndaşın sığorta pulunu vermir

yazısı səh.12-də

### ABŞ Tehranın himayəçisinə çevrilir?

yazısı səh.9-da

### Ölkədə dollar satılmaması yenicə ayaq tutan turizmi büdrədir

yazısı səh.13-də

### 15-20 yaş arası boşanan cütlüklərin acı statistikası

yazısı səh.14-də

### 13 yaşadək uşaqlarda xərçəng xəstəliyi artıb

yazısı səh.2-də

### Avtobusda yaşayan məcburi köçkün ailəsi...

yazısı səh.13-də

### Dünyanın ən nadir xəstəlikləri

yazısı səh.15-də

### Pulu harada saxlamalı...

yazısı səh.4-də

### Sabirabadda bazar davası

yazısı səh.12-də

## Rəsmi Bakının Avropanın mərkəzindən savaş mesajı

# AZƏRBAYCANIN BAŞ DİPLOMATINDAN MÜHARİBƏ XƏBƏRDARLIĞI - SƏRİN PAYIZIN QAYNAR SEÇİMİ YAXINLAŞIR

Elmar Məmmədyarovu ATƏT toplantısında sərt çıxışa vadar edən əsas motiv; apreldəki 4 günlük savaşdan bu gün 5 ay ötür, sülh danışıqları isə hələ də dalandadır - səbəb...; zaman indi Ermənistanla yanaşı, vasitəçi dövlətlərin də əleyhinə işləyir; ekspertlər deyir ki...




yazısı səh.8-də

## Həbsdəki bankirin bacısı oğlu da qandallana bilər - reket kimi...

Cəmin Hacıyev "MTN çetesi"nin köməkliyi ilə "Texnikabank"dan 1,5 milyon dollar kredit alan iş adamının bütün əmlakını ələ keçirib; "Las Veqas" restoran kompleksi, 115 min dollar, "Mercedes S class" sahibkar Murad Məmmədovdan əsl reket üslubu ilə alınıb - işə məhkəmə baxır...

yazısı səh.4-də



### Cahangir Hacıyevin "Beynəlxalq Bank işi"ni siyasiləşdirməsinin pərdəarxası

yazısı səh.6-da



Rüfət Quliyev

### Faizə pul verən deputatın sələmçi dostu da məhkəməyə verildi

yazısı səh.2-də



### İslam Kərimov Azərbaycana qarşı - faktlar

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 196 (6517) 5 sentyabr 2016


AZƏRBAYCAN RESPUBLİKASI
ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİNİN YANINDA
DAŞINMAZ ƏMLAKIN DÖVLƏT REYESTRİ XİDMƏTİ
...rın Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən

ÇIXARIŞ

...riya RX № 0445487

| | |
|---|---|
| ...uqu rəsmiləşdirilən şəxs* | Qasımova Nərgiz İsmayıl qızı |
| ...ınmaz əmlakın adı (növü) | Torpaq sahəsi |
| ...vanı (olduğu yer) | Bakı şəhəri, Səbail rayonu, Salyan şossesi, 32 |
| ...rpaq sahəsinin mülkiyyət növü | Xüsusi |
| ...rpaq sahəsi üzərində hüququn növü | Mülkiyyət |
| ...həsi (ölçüsü, ha) | 0.12 |
| ...ateqoriyası | Yaşayış məntəqələrinin torpaqları |
| ...əqsədli istifadə növü | Fərdi yaşayış |
| ...eyestr nömrəsi | 004013004504 |

Hüquq sahibləri

| Sıra № | Hüquq sahibinin adı | Payı | Qeydiyyat nömrəsi | Qeydiyyat tarixi |
|---|---|---|---|---|
| 1 | Qasımova Nərgiz İsmayıl qızı | Tam | 1114073952 | 05.08.2014 |

Daşınmaz əmlakın dövlət reyestrində 515 nömrəli reyestr kitabının 48736 nömrəli vərəqində qeydiyyata alınmışdır.

# Faizə pul verən deputatın sələmçi dostu da məhkəməyə verildi

**Deputat Rüfət Quliyevin sələmçilik fəaliyyəti haqda ötən saylarımızda yazmışdıq. R.Quliyevin Səbayel Məhkəməsinə iddia təqdim edərək 2011-ci ildən başlayaraq tanışı Namiq Səfərova sələmə üst-üstə 65 min manat pul verildiyini, sonradan bu məbləği faizlərlə birgə 328 min dollar hesabladığını diqqətə çatdırmışdıq. N.Səfərov 2015-ci ilin fevralında dünyasını dəyişib.**

Deputat iddiasında 328 min dolların mərhumun əmlaklarına yönəldilməsini tələb edirdi. Deputatın sələmə pul verdiyi mərhum Namiq Səfərovun həyat yoldaşı Nuranə Səfərova müxtəlif instansiyalara məktub yazaraq deputatın onun mərhum həyat yoldaşı ilə 40 ilə yaxın dostluq etdiyini, həyat yoldaşının ölümündən sonra isə Rüfət Quliyevin onların əmlaklarını ələ keçirmək üçün hərəkətə keçdiyini qeyd edib. Artıq bu iş üzrə məhkəmə qərar verib.

Redaksiyamıza daxil olan məlumata görə, R.Quliyevin yaxın dostu Qəzənfər Məmmədovla da bağlı Səbayel Rayon Məhkəməsində eyni mahiyyətli araşdırma keçirilir. Hakim Nurəddin Bağırovun sədrliyi ilə keçirilən prosesdə iddiaçı Nərgiz Qədimovadır. 2015-ci ilin mayında N.Qədimovanın yaxın qohumu Tərlan ona məxsus olan və Salyan prospekti 32 ünvanında yerləşən torpaq sahəsini deputatın dostuna girov verməklə 60 min manat alıb. Bundan bir neçə ay sonra həmin şəxs saxlanılıb. Bir neçə aylıq istintaq dövründə həbsdə qalan Tərlan sonda bəraət alıb. Həbsdən çıxandan sonra isə deputatın dostu Qəzənfər Məmmədova pulunu qaytarıb torpağı geri almaq istəyib. Lakin deputatın dostu verdiyi 60 min manatın əvəzinə ondan 300 min dollar tələb edib. Q.Məmmədova 60 min manatın əvəzinə 60 min dollar təklif olunsa da, o, məbləği alıb torpağı geri qaytarmaqdan imtina edib. Bundan sonra N.Qədimova məhkəməyə üz tutub və deputatın dostundan məhkəmədə verdiyi pula görə ondan 300 min manat tələb etməsinin əsaslandırılmasını istəyib. Hazırda məhkəmə çəkişməsi davam edir. Q.Məmmədov məhkəmədə tələbini əsaslandıra bilmir. 4 ay əvvəl başlanan məhkəmə prosesi davam edir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Çində "Böyük iyirmilik" ölkələrinin sammiti keçirilir

**Sentyabrın 4-də Çində "Böyük iyirmilik" (G20) ölkələrinin sammiti işə başlayıb. APA-nın məlumatına görə, G20-nin 11-ci sammiti iki gün davam edəcək.**




Xatırladaq ki, "Böyük iyirmilik" iqtisadi cəhətdən inkişaf etmiş və inkişaf etməkdə olan böyük dövlətlərin qeyri-formal birliyidir. Qrupun qərarları konsensus əsasında qəbul olunur və məcburi xarakter daşımır.

G20 ölkələrində planetimizin əhalisinin üçdə ikisi yaşayır. Dünya üzrə ümumi daxili məhsulun 85 faizi, dünya ticarətinin isə 75 faizi bu iyirmi ölkənin payına düşür.

Böyük iyirmilik" (G20) ölkəsinin xarici işlər nazirləri bir sıra vacib məsələlərlə bağlı konsensus əldə ediblər.

APA-nın "RİA Novosti" agentliyinə istinadən verdiyi məlumata görə, bunu Çin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Xua Çunin bildirib.

X. Çunin deyib ki, Çin tərəfi sammitin keçirildiyi Xançjouda xarici işlər nazirlərinin şərəfinə qeyri-rəsmi nahar təşkil edib. Naharda Rusiya, Cənubi Afrika, Cənubi Koreya, İndoneziya, Meksika, Sinqapur və digər ölkələrin xarici işlər nazirləri iştirak edib: "Naharda iştirak edən xarici işlər nazirləri terrorizm, qaçqın problemi, iqlim dəyişikliyi, davamlı inkişaf, vacib regional və digər məsələlər müzakirə olunub və geniş konsensus əldə olunub".

Qeyri-rəsmi naharda Çin xarici işlər naziri hazırda yeganə çıxış yolunun səyləri birləşdirmək olduğunu vurğulayıb.



## ABŞ-da təlim keçən polkovnik İŞİD-ə komandir təyin olundu

**İŞİD-in hərbi qanadına yeni komandir təyin olunub. Modern.az xəbər verir ki, bu barədə İraqın "Əs Sümeriyyə" telekanalı məlumat yayıb.**

Məlumata görə, bu vəzifəyə Tacikistanda xüsusi təyinatlı qüvvələrin keçmiş komandiri olmuş polkovnik Gülmurad Həlimov təyin olunacaq.

O, İŞİD-in hava zərbəsi ilə məhv edilmiş gürcü komandiri Traxan Batruaşvilinin yerini tutacaq.

Artıq ABŞ rəsmiləri Gülmurad Həlimovun başına 3 milyon dollar mükafat təyin ediblər.

Onun 2003-2014-cü illərdə tacikistanlı hərbçi kimi Amerikada bir neçə kontr-terrorizm təliminə qatıldığı və təcrübə keçdiyi məlum olub.

## Bakıda 16 yaşlı qızı küçənin ortasında döydülər

**Lent.az-ın məlumatına görə, 2000-ci il təvəllüdlü Ocaqverdiyeva Nərmin Eldost qızı ərizə ilə polisə müraciət edərək bildirib ki, üzdən tanıdığı oğlan onu döyüb.**

16 yaşlı qız əlavə edib ki, hadisə saat 20 radələrində Ü. Hacıbəyov küçəsi 66-nın qarşısında baş verib.

N.Ocaqverdiyeva onu döyən şəxsin adının Elçin olduğunu və onu üzdən tanıdığını deyib. Araşdırma aparılır.

## Akif Çovdarovun işi məhkəməyə göndərildi

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin həbsdə olan 4 yüksək vəzifəli əməkdaşının cinayət işi məhkəməyə göndərilib. "Qafqazinfo"nun hüquq-mühafizə orqanlarından əldə etdiyi məlumata görə, artıq tərəflərin ittiham aktı ilə tanış olma mərhələsi başa çatıb.**

Keçmiş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov, həmin Baş İdarənin 1-ci İdarəsinin rəisi, polkovnik Səlim Məmmədov, 2-ci idarənin rəisi, mayor Akif Əliyev və 3-cü idarənin rəisi Orxan Osmanovun cinayət işi üzrə ittiham aktı baş prokuror Zakir Qaralov tərəfindən təsdiqlənib.

Cinayət işi baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndərilib.

## Azərbaycanda yol kənarlarındakı reklam qadağası ləğv edildi

**Azərbaycanda avtomobil yollarında reklam yerləşdirilməsinə qoyulan qadağa ləğv edilib, yollarda reklam yerləşdirilməsinin şərtləri müəyyən edilib. APA-nın məlumatına görə, bu, Nazirlər Kabinetinin "Avtomobil yollarının layihələşdirilməsi, tikintisi, yenidən qurulması və təmiri Qaydaları"nda əksini tapıb.**

Qaydaya əsasən indiyə qədər hərəkətin təhlükəsizliyini təmin etmək üçün avtomobil yollarında və təhkim zolağında hərəkətin təhlükəsizliyinə aid olmayan nişanların və göstəricilərin, reklam lövhələrinin və transparantların quraşdırılması qadağan edilib.

Qaydaya edilən dəyişikliyə əsasən isə avtomobil yollarında yol hərəkətinin təhlükəsizliyi tələblərinə cavab verməyən, yol hərəkəti iştirakçıları üçün maneə və təhlükə yaradan, onların həyat və sağlamlığına təhlükə yarada bilən, sürücülərin yol şəraitini qiymətləndirməsini çətinləşdirən, yol hərəkəti nişanlarına və yazılarına bənzəyən reklam qurğularının yerləşdirilməsinə yol verilmir. Yol örtüyünün üzərində, yol hərəkəti nişanlarında, onların dirəklərində və digər tənzimləmə vasitələrində, yol qurğularında reklamın yerləşdirilməsi qadağandır.

## Bakıda dəhşətli qəza: bir ailədən 3 nəfər öldü

**Dünən gecə paytaxtın Suraxanı rayonunda "QazEL" və "KamAZ" markalı yük avtomobillərinin toqquşması nəticəsində ağır yol-nəqliyyat qəza hadisəsi baş verib. Dəhşətli qəzada bir ailədən 3 nəfər həyatını itirib.**

Lent.az-ın məlumatına görə, yük maşınlarının toqquşması nəticəsində, "QazEL"in sürücüsü, 1955-ci il təvəllüdlü Rzayev Pirican Əlif oğlu və sərnişinləri, sürücünün oğlu - 1992-ci il təvəllüdlü Rzayev Sahib Pirican oğlu ilə sürücünün yeznəsi, 1976-cı il təvəllüdlü Qəhrəmanov Elşad Qəni oğlu vəfat edib. "QazEL"in kuzasında olan Qədirov Tacəddin Mehralı oğlu isə ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib.

Bildirilir ki, qəzaya düşən ailə kiçik sahibkarlıqla məşğul olurmuş və maşınla cücə daşıyırmış. Gecə saatlarında Zığ qəsəbəsində kubiklə dolu "KamAZ" yoxuşa çıxa bilmədiyindən yolun hərəkət hissəsində dayanıb.

Nəticədə arxadan gələn "QazEL" həmin yük maşınına çırpılıb. "KamAZ"dakı kubiklər "QazEL"in üstünə tökülüb və maşının qarşı tərəfində oturaq halda vəfat edən şəxslərin cəsədlərini çıxarmaq üçün əraziyə xilasedicilər cəlb edilib.

Əməliyyat saat 04:51-də başa çatıb.

## Obama və Putin görüşmək barədə razılığa gəldilər

**Rusiya və ABŞ prezidentləri Vladimir Putin və Barak Obama Çində keçirilən G20 sammitində ayrıca görüşmək barədə razılıq əldə ediblər.**

"Report" TASS-a istinadən xəbər verir ki, bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov məlumat verib.

"Hələlik dövlət başçıları bir-biri ilə yalnız salamlaşıblar və ayrıca danışmaq barədə sözləşiblər", - deyə Kreml təmsilçisi söyləyib.

Mətbuat katibi görüşün məhz nə zaman baş tuta biləcəyini açıqlamayıb.

İki ölkə prezidenti sonuncu dəfə 2015-ci ilin noyabrında Parisdə keçirilən iqlim konfransında bir araya gəliblər.

## 13 yaşadək uşaqlarda xərçəng xəstəliyi artıb

**Azərbaycanda 13 yaşadək uşaqlar arasında ilk dəfə bədxassəli şişlərlə xəstələnmə diaqnozunun qoyulması halları artıb.**

Trend-in Dövlət Statistika Komitəsinə istinadən verdiyi məlumata görə, 2015-ci ildə 10 183 nəfərə ilk dəfə bədxassəli şişlərlə xəstələnmə diaqnozu qoyulub. Onların 4967-si kişi, 5216-sı qadın olub.

Ötən il ilk dəfə bədxassəli şişlərlə xəstələnmə diaqnozu qoyulanların 113-ü 13 yaşadək uşaq olub.

2011-ci ildə Azərbaycanda 0-13 yaşlı uşaqların 71-nə bədxassəli şişlərlə xəstələnmə diaqnozu qoyulmuşdusa, 2014-cü ildə onların sayı 81, 2015-ci ildə 113 olub. Ötən il bu diaqnozun qoyulduğu uşaqların 66-sı oğlan, 47-si qız olub.

Ötən il 14-17 yaşlı uşaqların 24-nə (11 oğlan, 13 qız) ilk dəfə bədxassəli şişlərlə xəstələnmə diaqnozu qoyulub.

Əhalinin hər 100 000 nəfəri arasında ilk dəfə bədxassəli şişlərlə xəstələnmə halları artıb.

2014-cü ildə əhalinin hər 100 000 nəfərinin 101,4 nəfərinə, 2015-ci ildə isə 106,9 nəfərinə ilk dəfə bədxassəli şişlərlə xəstələnmə diaqnozu qoyulub.

## Axtarışda olan şəxs Dağüstü parkda tutuldu

**Bakıda dələduzluq etdiyinə görə axtarışa verilmiş şəxs tutulub.**

Lent.az-ın məlumatına görə, 9-cu Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat nəticəsində Cinayət Məcəlləsinin 178.2.4 (dələduzluq) maddəsi ilə təqsirləndirilən Bakı şəhər sakini, 1962-ci il təvəllüdlü Nağıyev Fətulla Raqif oğlu Dağüstü parkda tutulub.

F.Nağıyev istintaqa təhvil verilib.

Araşdırma aparılır.

YENİ MÜSAVAT
N 196 (6517) 5 sentyabr 2016

**Bakı sakinlərinin problemlərindən biri də şadlıq saraylarının, səs-küylü istirahət məkanlarının yaşayış evlərinin yaxınlığında yerləşməsidir. Xüsusən də həmin məkanların gecə saatlarında fəaliyyətə başlaması yaxınlıqda yaşayan insanların rahatlığını pozur.**



# Elman Rüstəmovun “Planet”i əhalini etiraza qaldırır

## Sakinlər deyir ki, baş bankirin qardaşının idarə etdiyi restoranı yolkəsənliklə yanaşı, onları “səs terroruna” məruz qoyur: “...Yolu bağlayacağıq”...

“Yeni Müsavat” qəzetinə mütəmadi olaraq buna dair şikayətlər daxil olur.

Nizami rayonunda, “Planet” şadlıq sarayının ətrafında yaşayan sakinlər də sözügedən problemdən əziyyət çəkir. Gecə yarısına qədər davam edən dəbdəbəli şənlik mərasimlərinin səsi insanları yatmağa qoymur. Bu cür tədbirlər qış aylarında restoranın içərisində keçirildiyindən yüksək səs ətrafda yaşayanları bir o qədər də narahat etmir. Lakin yay aylarında isə açıq havada keçirilən tədbirlərin səsi insanları “səs terroru”na məruz qoyur.

Məhsəti küçəsinin sakinləri restoranın səsindən gecələr gözlərinə yuxu getmədiyini dedilər: “İllədir ki, burada məskunlaşmışıq. Gördüyünüz kimi, onlarla ailə bu durumdan əziyyət çəkir. Səsdən-küydən gözümüzə yuxu getmir. Restoran yiyəsi başa düşmür ki, bu qədər əhali burada narahatdır. Bir dəfə gedib narazılığımızı bildirdik ki, yığışdırın bu rəzaləti. Kimə deyirsən... Yenə öz işlərindədirlər. Qışda toy da, şənlik də içəridə olurdu. Onda səs az gəlirdi. İndi restoranın həyətinə köçürüblər, ad günü, xırda məclislər edirlər. Çalğı da gecə saat 2-yə kimi davam edir”.

Adının çəkilməsini istəməyən başqa bir sakin restoranda atəşfəşanlığın da olduğunu dedi: “Bu insanların rahatlığının və haqqının pozulmasıdır. Yaşayış binasının arxasında toy-bayram olarmı? Bir də görürsən partlayış başladı. Elə bil müharibədir. Yüksək səsli partlayıcılar, fişənglər atılır. Uşaq yuxudan diksinib oyanır. Bir də görürsən ki, səsi olmayan, qeyri-peşəkar bir müğənni kobud səslə mahnı ifa edir. İndi gəl buna döz. Əgər bu cür vəziyyət davam edərsə, sakinlər yığışıb, magistral yolu bağlayacağıq. Artıq bezmişik”.





Digər bir problem isə “Planet”in yolda tıxac yaratmasıdır. Şadlıq evi yolun düz kənarında yerləşdiyindən burada avtomobillərin hərəkətinə ciddi problem yaranır.

Məsələ ilə bağlı “Planet” şadlıq sarayının rəhbərliyi ilə görüşməyə də cəhd etdik. Restoranın məsul işçilərindən biri sakinlərin şikayətinin əsassız olduğunu dedi: “Bizim məclislər gecə yarısına kimi davam etmir. Sakinlər bunu doğru söyləmirlər. İndiki məclislər onsuz da tez yekunlaşır. Axşam saat -11-də demək olar ki, bitir. Musiqiyə gəldikdə isə maksimum dərəcədə çalışırıq səs-küy olmasın”.

Qeyd edək ki, «Planet» şadlıq sarayının Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmova məxsus olduğu söylənilir. Mətbuatda gedən məlumatlara görə, bu şadlıq evinin idarəçiliyini ölkənin baş bankirinin qardaşı Talıb Rüstəmov həyata keçirir. Ötən il Nizami Rayon İcra Hakimiyyətinin rəhbərliyi ilə şadlıq sarayı arasında problem yaranmışdı. Belə ki, icra hakimiyyətinin rəsmiləri şadlıq evinin bir hissəsinin plana düşdüyündən söküləcəyini bildirmişdilər. Məhz Elman Rüstəmovun müdaxiləsindən sonra yerli icra hakimiyyəti “Planet”i sökmək niyyətindən daşınmalı oldu.

Şadlıq sarayları və restoranlardan gələn musiqi səsinin insanları narahat etməsinə gəlincə, buna Bakının hər yerində rast gəlmək mümkündür. Ekspert isə hesab edir ki, bu yaşam normalarına ziddir.

Sosial Strateji Tədqiqatlar Mərkəzinin rəhbəri İlqar Hüseynli “Yeni Müsavat”a açıqlamasında məsələyə münasibət bildirərək qeyd etdi ki, aidiyyəti qurumlar mövcud qaydalara əsasən monitorinqlə aparsa, həmin obyektlərin bir çoxu bağlana bilər: “Yaşayış sahələrinin yaxınlığında bu cür obyektlərin tikilməsi qanunla tənzimlənir və xüsusi olaraq hər bir yaşayış massivi üçün sosial infrastrukturun qurulması üçün yerlər ayrılır. Lakin bizdə restoranlar yaşayış binalarının yerləşdiyi və əhalinin çox sıx məskunlaşdığı ərazilərdə tikilir. Bu həm şəhərsalma normalarına zidddir, eyni zamanda sanitar-gigiyenik normalar çox ciddi pozulur. Xüsusən şadlıq evlərinin mətbəxində yemək bişirmək üçün nəzərdə tutulan sobalarından çıxan tüstü borularla yaşayış binalarının olduğu əraziyə buraxılır. Elə yerlər var ki, orada ümumiyyətlə kababxanaların tüstüsündən nəfəs almaq mümkün deyil. Bu həmin ərazidə yaşayan insanlarda, xüsusən azyaşlılarda allergik xəstəliklərin yaranmasına gətirib çıxarır, eyni zamanda ağciyər-nəfəs yollarının kəskin iltihablı xəstəliklərin yaranmasına gətirib çıxarır. Eyni zamanda səhərə qədər davam edən musiqi sədaları insanların sinir sisteminə ciddi ziyan vurur, onların istirahətinə mane olur. Bakı şəhər icra hakimiyyəti bu məsələlərdə xüsusi imtiyazlara sahib olmalıdır, lazım gələndə obyektlərin bağlanılmasına belə getməlidir. Lakin etiraf etmək lazımdır ki, bu obyektlərlə müvafiq qurumların nümayəndələri arasında sövdələşmə mövcuddur və ona əsasən fəaliyyət göstərə bilirlər. Mövcud qaydalara əsasən monitorinqlə aparılsa, o cür obyektlərin bağlanmasına gətirib çıxaracaq kifayət qədər faktlar var”.

Qeyd edək ki, qanunvericiliklə nüfuzedən səs-küyün yaşayış və ictimai binalarda, yaşayış tikililəri ərazisində, habelə insanların cəmləşdiyi digər yerlərdə səs təzyiqinin, səsin ekvivalent enerjisi və maksimal səviyyəsinin yolverilən normaları müəyyənləşdirilib. Bu normalara əsasən kafe, restoran, yeməkxanaların zallarında gündüz saatlarında səsin yolverilən maksimal həddi 65 desibeldən çox olmamalıdır.

**Məğrur MƏRD**
**Fotolar müəllifindir**





# Milli rüşvətxorluğun “nə verirsən, ver” dönəmi



**Samir SARI**

**O gün bir xeyir iş məclisindəydim. Təsəvvür edin ki, məclisdə iki cavandan biri mən idim, qalan hamısı tipik sovet adamlarıydı - yaşları 60-70.**

Masadakı 10-dan artıq kişinin cəmi 3-4-ü spirtli içki nuş edirdi, üçü sürücü idi, o birilərinin də içməyə səhhətləri yol vermirdi. İçki mövzusunda açılan və “ən yaxşı arağı sovet vaxtı buraxırdılar, Andropovski araqlar nəyə desən, dəyərdi” replikası ilə başlayan söhbət Sovet Sosialist Respublikalar İttifaqının, türkün sözü, özlənməsi ilə davam etdi.

Məlum oldu ki, ağsaqqallardan bəziləri sovet dövründə təsərrüfat rəhbəri, müəssisə müdiri, bölmə rəisi kimi vəzifələrdə işləyiblər. O da məlum oldu ki, onlar müstəqillik dövründə daha yaxşı və daha pullu vəzifələrdə çalışıblar, yaxşı da qazanıb, özlərinə ev-eşik düzəldiblər, oğul-uşaqlarına da gün ağlayıblar.

Amma hamısı bir ağızdan sovet dövrünü tərifləyirdi. Biri deyirdi, sovet vaxtı filan şeyi filan cür eləsəydik, basardılar, gedərdik, türmədə çürüyərdik, indi qorxusu yoxdur.

Anlaşılan o idi ki, bunlar sovet dönəmində qorxa-qorxa 3-dən, 5-dən qazanan, çırpışdıran adamlar olublar və nə əldə ediblərsə, qorxub-ürkmədən müstəqillik dönəmində əldə ediblər. Di gəl, onlar sovet dövrünün xiffətini çəkirlər.

Özlüyündə bu, fenomenal haldır. İnsan qorxa-qorxa yaşadığı və az qazandığı dövrü qorxub-çəkinmədən N qədər pul-para çırpışdırdığı dövrdən üstün tutur.

Ağsaqqallardan biri bu durumu izah edən bir monoloq söylədi: “Mən Əhmədzadə ilə işləmişəm. İndiki su təsərrüfatı naziri var ha, bax o kişiylər. O, bizim rayonun birinci katibi idi, mən də ildə 10 milyon gəliri olan təsərrüfatın rəhbəriydim. O kişi məndən bir dəfə də olsun, bir qəpik rüşvət almadı, heç nə ummadı. Sadəcə, bəzən rayona qastrola gələn artistləri, müğənniləri yanıma göndərirdi, qonaq edib yola salırdım, vəssalam. Bir də bir prokuror vardı, mənim təsərrüfatıma təhkim etmişdilər. Fikirləşirdim ki, bunun cibinə bir-iki min manat qoyum, xərcləsin. Nə o diliylə istəyirdi, nə də mən risk edib sovet prokuroruna rüşvət verirdim. Axırda bir gün bir məclisdə yeyib-içərkən ara açıldı, prokuror dedi ki, mən bu rayona lüt gəlmişəm, heç nəyim yoxdur. Ondan sonra bir az əl tutduq ki, adam özünə şərait yaratsın”.

Yekun qənaət bundan ibarət oldu ki,

*sovet məmurları indikilərə baxanda xeyli dərəcədə gözü-könlü tox imişlər;

* sovet dövründə alınan, verilən pullar rüşvətdən çox şirinlik, halallıq səciyyəsi daşıyırmış;

* sovet vaxtı vəzifələrə təyinatlar çox vaxt müftə-müsəlləm, bəzən isə yüngül xərclə başa gəlirmiş;

* sovet vaxtı xalq malını açıq-aşkar mənimsəyənlər, qudurub harınlayanlar mütləq cəzalanırmış, ona görə də hamı bir böyürdən az-az yeməyi üstün tuturmuş, dartıb-dağıtmırmış.

Xülasə, söhbət bu istiqamətdə gedirdi və hamı da bu fikirdə idi ki, indiki dövrlə sovet dövrünü müqayisə etmək olmaz. Ona görə ki, indinin məmurları çox acgöz, mərdiməzar, ikiüzlü və etibarsızdırlar.

Əlbəttə, keçən günə gün çatmaz deyiblər. Belə nostalji dolu söhbətlərdən gündə bir milyonu olsun, xeyri yoxdur. Əsas odur ki, o “halal” sovet məmurları qorxa-qorxa şirinlik ala-ala, xırda çaplı maxinasiylar edə-edə, qohum-əqrəbalarının adına sovet maşınları götürə-götürə, evlər tikdirə-tikdirə, daha çox varlanmaq ehtirası ilə yaşaya-yaşaya bir gün istədikləri mühiti əldə ediblər və “at arğacı, vur qılıcı” dönəmi başlayıb.

Bəs indi onlar niyə nankorluq edirlər və kasıb, qorxulu sovet dövrünün xiffətini çəkirlər?

Bu sualın cavabını da sovet və müstəqillik dövrünün məmuru olmuş ağsaqqallardan birinin söhbətində tapmaq olar: “Sovet vaxtında nə qazanırdıqsa, çoxu özümüzə qalırdı. İndi isə qazandığımızın çoxunu əlimizdən alırlar və tez-tez də ilişdirib deyirlər, bizə dəxli yoxdur, hardan tapırsınız, tapın, bizim hesabımızı gətirin. İndi açıq alver gedir. Sovet vaxtı adamdan rüşvət tələb etmirdilər, indi adamın boğazına çökürlər”.

Bəli, heç demə, sovet dövrü ona görə özlənir ki, rüşvətxorluğun miqyası kiçik imiş və rüşvəti adamdan birbaşa tələblə yox, eyhamla, “nə verirsən, ver” həcmində alırmışlar. İndi isə açıq şəkildə tələb edir, aylıq xərac şəklinə salır, düzəldib verə bilməyəndə şərləyir, torba tikir, adamın başına oyun açırlar.

Yəni bizim camaat demir ki, rüşvət, korrupsiya olmasın, halallıq, dürüstlük olsun, deyir ki, rüşvət də verilib-alınsın, korrupsiya da olsun, amma miqyası kiçik olsun və bütün əməliyyatlar örtülü bazarda, mədəni çərçivədə getsin.



# Pulu harada saxlamalı...

## Ekspert: "Pulu banka qoymaq olar, amma öncə həmin bankın durumunu ciddi araşdırmaq lazımdır"

**"Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sabiq rəis müavini Mübariz Mədətovun evindən seyf oğurlamaqda təqsirləndirilən şəxslərin məhkəmə prosesi ictimaiyyətdə yenidən "pulu harada saxlamalı" sualını aktuallaşdırdı. Öncə qısa olaraq qeyd edək ki, hadisə bu il mayın 23-də baş verib. Belə ki, Mübariz Mədətova məxsus evdən içərisində 10000 ABŞ dolları və 40000 avro pul olan seyfi oğurlanıb. Bu il bir çox belə pul oğurluğu hadisələri baş verib. Misal üçün ilin ilk ayında Sabunçu sakini Vidadi Hüseynova məxsus seyfdən 80 min manat dəyərində qızıl əşyalar götürülmüşdü.**

Azərbaycanda məşhur şəxslərin də evindən seyf aparılıb. İllər öncə iş adamı, aktrisa Leyla Şıxlınskayanın da evindən seyf oğurlanmışdı...

Göründüyü kimi, Azərbaycanda seyf də güvənli yer sayılmır. Xarici ölkələrdə isə insanlar pullarını evdə ümumiyyətlə saxlamırlar. Ekspertlər hesab edirlər ki, bunun əsas səbəbi dünya ölkələrində pulun yatırılması üçün təklif edilən istiqamətlərin çox olmasıdır. Belə ki, əlində yüksək məbləğdə vəsait olan vətəndaş bunu banklara depozit şəkilində qoymaq, qiymətli kağızlara, səhmlərə yatırmaq, daşınmaz əmlak almağa və biznesə yönəltmək kimi üstünlüklərə sahibdir. Azərbaycanda isə son zamanlar yaşanan iqtisadi problemlər banklara da inamı sarsıdıb.

Bəs bankların bağlandığı, oğruların isə artdığı ərəfədə insanlar pullarını harada saxlamalıdır?

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan iqtisadçı ekspert Rəşad Həsənov bildirib ki, əslində vətəndaş bankları ciddi şəkildə araşdırarsa uduzmaz: "Hazırda bağlanan banklara diqqət edərsək görərik ki, hətta bu banklarda belə kifayət qədər yüksək rəqəmlərlə ifadə olunan əmanət və depozitlər olub. Bu isə onu göstərir ki, bir çox hallarda vətəndaşlar, biznes subyektləri kortəbii şəkildə yatırımlar edib, əmanət və depozitlər yerləşdirirlər. Bankların maliyyə vəziyyəti ilə bağlı heç bir araşdırma aparmırlar. İlk olaraq ciddi araşdırma aparmaq lazımdır. Əslində hazırda araşdırma aparmaqla əmanət və depozitlərin yerləşdirilməsində ciddi problem yoxdur. Çünki sistem üçün əhəmiyyətli banklar var və onlara əmanətlər, depozitlər yerləşdirmək mümkündür. Eyni zamanda hazırda dövlət istiqrazları da var ki, burada da heç bir maneə yoxdur. Bu günə qədər təcrübə onu göstərir ki, bağlanan banklarda sığortalanmış əmanətlərin geri qaytarılmasında hər hansı bir problem çıxmayıb. Doğrudur, faizlərlə bağlı müəyyən sıxıntılar var. Ancaq düşünürəm ki, bank sektoruna inamın tamamilə itməməsi üçün Əmanətlərin Sığortalanması Fondu bu istiqamətdə də müəyyən irəliyə doğru addım atacaq".

Ekspert bildirib ki, hazırkı məqamda vəsaitlərin müxtəlif valyutalarda saxlanması ilə növbəti dövrlərdə riskləri minimuma endirmək olar: "ABŞ dolları və avro hazırda yatırım üçün uyğundur. Bundan başqa "Brexit" hadisəsindən sonra funt-sterlinq öz dəyərini kifayət qədər itirib. Təbii ki, bu ilkin nəticələrdir. Hesab edirəm ki, hazırda bu valyutanın alınması üçün ən uğurlu məqamdır. Düşünürəm ki, funt-sterlinqə edilən yatırımlar, növbəti illərdə xeyli gəlir verə bilər. Daşınmaz əmlak bazarına gəlincə isə orada hazırkı situasiya belədir ki, biznes subyektlərinin ciddi borc yükü var. Məhz bu səbəbdən bəzən bazarda dəyərindən qat-qat aşağı qiymətlərlə təkliflər görürük. Bu istiqamətə yatırımlar edilə bilər. Külçə qızılla da bağlı deyim ki, bu istiqamətə də müəyyən yatırımlar etmək olar. Çünki hazırda dünya iqtisadiyyatında müəyyən dəyişikliklər var. Bu səbəbdən də növbəti illər üçün qızılın qiymətində müəyyən addımlar proqnozlaşdırılır. Belə həssas məqamlarda investorların qızıla meyli artır ki, bu da qiymətin yüksəlməsinə səbəb olur. Bizneslə də bağlı müəyyən addımlar atmaq olar. Belə ki, hökumət hazırda müəyyən istiqamətlərdə təşviq mexanizmləri hazırlayır. Burada kiçik sahibkarlıqla, istehsal-sənaye ilə bağlı müəyyən təşviq mexanizmləri hazırlanır. Düzgün qiymətləndirmə aparıb, müsbət nəticələr almaq olar".

❑ Əli RAİS

# Həbsdəki bankirin bacısı oğlu da qandallana bilər-reket kimi...

## Cəmin Hacıyev "MTN çetesi"nin köməkliyi ilə "Texnikabank"dan 1,5 milyon dollar kredit alan iş adamının bütün əmlakını ələ keçirib; "Las Veqas" restoran kompleksi, 115 min dollar, "Mercedes S class" sahibkar Murad Məmmədovdan əsl reket üslubu ilə alınıb - işə məhkəmə baxır...

**Nərimanov Rayon Məhkəməsində hakim Abbas Əliyevin sədrliyi iş adamı Murad Məmmədovun "MTN çetesi"nə qarşı iddiasına baxılır. İlginc məqamların araşdırıldığı məhkəmə prosesi haqda redaksiyamıza daxil olan məlumatda bildirilir ki, M.Məmmədov 2015-ci ilin əvvəlində "Texnikabank"a müraciət edərək 1 milyon 500 min manat kredit alıb və özü də bilmədən "MTN çetesi"nin diqqət mərkəzinə düşüb.**

İş adamı həmin kreditin alınması üçün Bakı-Sumqayıt yolunda yerləşən "Las Veqas" restoran kompleksini girov qoyub. Kreditin alınmasından 3 ay sonra M.Məmmədovu "Texnikabank"ın Müşahidə Şurasının sədr müavini, Beynəlxalq Bankın sədri Cahangir Hacıyevin bacısı oğlu Cəmin Hacıyev yanına çağırıb və ağlasığmaz tələb irəli sürüb!

M.Məmmədova deyib ki, təcili olaraq 3 ay əvvəl aldığı krediti tam şəkildə geri qaytarmalıdır.

Cəmin Hacıyevin tələbindən çətin duruma düşən iş adamı kredit müqaviləsinin 2020-ci ilə qədər müddətinin olduğunu söyləyib. Ona krediti tezliklə qaytara bilməyəcəyini, aldığı kreditin böyük hissəsini girov qoyduğu restorana xərclədiyini deyib. C.Hacıyev iş adamına 3 gün vaxt verib və krediti geri qaytarmayacağı təqdirdə MTN-ə aparılacağını söyləyib.

Bankı kor-peşman tərk edən iş adamı vəziyyətdən çıxmaq üçün yollar axtarıb, amma tapa bilməyib. 3 gün sonra isə restoran kompleksinə MTN əməkdaşları təşrif buyurublar və iş adamından pulu qaytarmasını tələb ediblər. Deyiblər ki, təcili olaraq aldığı krediti geri qaytarmasa, vəziyyəti pis olacaq. Bu tələbdən özünü itirmiş iş adamı MTN-in istintaq şöbəsinin müstəntiqi Cavid Quluzadənin müşayiəti altında "Texnikabank"a, Cəmin Hacıyevin hüzuruna aparılıb. Cəmin Hacıyev iş adamından tələb edib ki, təcili pulu qaytarsın, əks təqdirdə özünün və yaxınlarının əmlakları əllərindən alınacaq. İş adamı izah etməyə çalışıb ki, kreditə görə aylıq ödənişləri gecikdirmədən ödəyir, aldığı krediti də xərcləyib, kompleksə lazım olan avadanlıqları xaricdən sifariş edib, müvafiq ödəmələr həyata keçirib. Bunun qarşılığında iş adamı MTN-ə aparılmaqla təhdid edilib, başına oyun açılacağı deyilib. Bundan sonra iş adamı pulu ödəmək iqtidarında olmadığını söyləyib. Onu MTN-çi müstəntiq və digərlərinin əhatəsində təhdid altında Sumqayıt şəhərində yerləşən notariuslardan birinə aparıblar. Orada "Las Veqas" restoran kompleksini özləri ilə gətirdikləri Azad adlı şəxsin adına rəsmiləşdiriblər. Məhkəmədə belə aydın olub ki, Cəmin Hacıyev bununla da kifayətlənməyib, iş adamından onun hesabına 115 min dollar köçürülməsini tələb edib. İş adamı yaxasını "MTN çetesi"nin əlindən qurtarmaq ümidi ilə bu tələbi də yerinə yetirib. Bundan başqa M.Məmmədovun qardaşı oğlunun adına olan "Mercedes S class" markalı, qara rəngli, Az 90 ZD 650 nömrə nişanlı maşın müstəntiq Cavid Quluzadənin adına rəsmiləşdirilib.



Cavid Quluzadə



Cəmin Hacıyev

2015-ci ilin oktyabrında MTN-də məlum "təmizləmə"lərdən sonra iş adamı məhkəməyə üz tutmaq qərarına gəlib. O, restoranının, maşının və əlindən alınan 115 min dolların geri qaytarılması iddiası ilə Nərimanov Rayon Məhkəməsinə müraciət edib. 6 ay əvvəl başlanan məhkəmə prosesi artıq yekunlaşmaq üzrədir. Ötən müddət ərzində məhkəmə MTN müstəntiqinə dəfələrlə çağırış göndərib. C.Quluzadə məhkəmənin çağırışlarına getmir.

Onu da qeyd edək ki, 1981-ci il təvəllüdlü Cəmin Hacıyev "Texnikabank" rəhbərliyinə Beynəlxalq Bankdan transfer olunub. 2012-ci ildə baş tutan bu transfer vasitəsi ilə C.Hacıyev "Texnikabank"ı nəzarətdə saxlayıb. M.Məmmədovun başına gələnlər onu deməyə əsas verir ki, Cahangir Hacıyev bankı nəzarətində saxlamaq üçün qudası, 2015-ci ilin oktyabrına qədər milli təhlükəsizlik naziri olan Eldar Mahmudovun çetesinin xidmətlərindən də aktiv şəkildə istifadə edib. Nəticədə iş adamları "MTN çetesi"nin təhdidi altında əmlaklarını Cahangir Hacıyevin yaxın ətrafına "bağışlamalı" olublar.

❑ E.HÜSEYNOV

# MTN-in xüsusi işgəncə otağında baş verən dəhşətlər...

## MTN Təcridxanasının sabiq rəisi Zaur Bənnayev istintaqa çağırıldı; işgəncə otağından keçənlərin yaralarını təcridxana rəisi gizlədirmiş

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin Antiterror Mərkəzində xüsusi olaraq işgəncə avadanlıqları ilə təhciz edilmiş otaqlar olub. Bu otaqlardan keçən şəxslərin bədənləri üzərində dəhşətli işgəncələrdən əmələ gələn yaralar elə MTN-də ört-basdır olunurmuş.**



Hazırda MTN-in 21 yüksək rütbəli zabiti həbsdədir, işdən çıxarılanlar da "MTN işi" ilə bağlı istintaqa cəlb olunmaqdadırlar. Gununsesi.info-nun məlumatına görə, Eldar Mahmudovun nazir olduğu dönəmdə rəhbərliyin qanunsuz göstərişlərinə əməl edən digər əməkdaşlar da istintaq prosesində şahid qismində dindirilir. Belə şəxslərdən biri də MTN-in İstintaq Təcridxanasının sabiq rəisi Zaur Bənnayevdir. Sabiq rəis həbsə alınmayıb, amma "MTN işi" üzrə şahidlərdən biridir. Sayt istintaqa yaxın mənbəyə istinadən yazır ki, işdə zərərçəkən kimi tanınan şəxslər həbs olunarkən işgəncələrə məruz qalıblar. Z.Bənnayevi də bu faktlar üzrə dindiriblər, ona suallar verilib.

Belə aydın olur ki, MTN-in həbs etdiyi şəxslərə işgəncələri təcridxanada deyil, Antiterror Mərkəzində, xüsusi işgəncə avadanlıqları ilə təchiz olunmuş otaqlarda veriblər. Dəhşətli işgəncələrdən sonra həmin şəxslər MTN-in təcridxanasına aparılıblar. Z.Bənnayevə verilən suallar da təcridxanaya gətirilən şəxslərin bədənləri üzərindəki xəsarət izlərinin qeydə alınması ilə bağlı olub. Təqsirləndirilən şəxslər istintaqdan MTN-in təcridxanasına təhvil verilərkən qanunsuzluqlara yol verilib, onların bədənləri üzərindəki dəhşətli işgəncə izləri qeydə alınmayıb, rəsmiləşdirilməyib və prokurorluq orqanlarına işgəncə haqda məlumat verilməyib. Hansı ki, işgəncə izləri ilə təcridxanaya gətirilən vətəndaş barəsində qanunvericiliyin tələblərinə uyğun hərəkətlər aparılmalıdır.

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 196 (6517) 5 sentyabr 2016

**Sentyabrın 3-dən konstitusiyaya düzəlişlər üzrə referendumun təşviqat kampaniyasına start verilib. Seçki Məcəlləsinə əsasən, təşviqatın aparılmasına cəmi 22 gün vaxt verilir. Kampaniyada rəsmi olaraq MSK tərəfindən qeydiyyata alınmış üç hökumətyönlü təşviqat qrupu fəaliyyət göstərir.**

# Referendum təşviqatının dördüncü günü - rəqabət yoxdur...

## Mirmahmud Mirəlioğlu: "Hökumət belə istəyir və ona da nail olur"

Bunlar hakim partiya tərəfindən yaradılmış "Yeni Azərbaycan", Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən yaradılmış "Vətəndaş cəmiyyəti" və Bələdiyyə Şuraları tərəfindən yaradılmış "Bələdiyyə" qrupudur. Hər üç təşviqat qrupu konstitusiyaya düzəlişlərin lehinə çıxış edir.

Bu mənada, təşviqat kampaniyası alternativsizlik şəraitində keçirilir. Belə ki, MSK Müsavat Partiyası tərəfindən yaradılmış yeganə müxalif "Respublika" təşviqat qrupunu qeydiyyata almayıb. "Respublikaçı alternativ" Hərəkatının təşviqat qrupu təşkilatın icraçı katibi Natiq Cəfərlinin və referendumda REAL-ın səlahiyyətli nümayəndəsi olan iki fəalın həbsindən sonra imzatoplama kampaniyasından geri çəkilib. Aparıcı müxalifət qüvvəsi - Demokratik Qüvvələrin Milli Şurası əvvəlcədən referendumda iştirakdan imtina edib, "iradəni azad bildirmək üçün şərait olmadığını" bildirib və konstitusiyaya düzəlişlərə qarşı dinc fəal mübarizəyə çağırıb.

Klassik Xalq Cəbhəsi Partiyası isə vətəndaşları səsverməni boykot etməyə çağırıb. Bu səbəbdən hökumət referendum təşviqat kampaniyasını alternativsiz keçirir.

Qeyd edək ki, təşviqat sentyabrın 25-də saat 8:00-da - səsvermədən bir gün əvvəl başa çatacaq.

Hökumətin alternativsiz təşviqat kampaniyası keçirməsinə münasibət bildirən Ərəstun Oruclu qeyd etdi ki, bu elə referendumun mahiyyətinə uyğundur: "Burada təəccüblü heç nə yoxdur. Referendumun özünün gündəmə gəlməsi, nəzərdə tutulan dəyişikliklərin hüquqi dövlət baxımından, hakimiyyət bölgüsü baxımından nə dərəcədə önəmli olması, əhaliyə bu barədə heç bir izahat verilməməsi onu göstərir ki, məqsəd istənilən yolla onu həyata keçirməkdir. Yeni qarşıya çıxacaq ən kiçik maneələr belə aradan qaldırılacaq. Təbii ki, buna qarşı kampaniya aparmaq, müqavimət göstərmək lazımdır. Ən azı insanlara izah etmək


Mirmahmud Mirəlioğlu

lazımdır ki, referendum nəticəsində konstitusiyaya ediləcək bu dəyişikliklər Azərbaycanın hüquqi dövlətçilikdən, demokratiyadan uzaqlaşdırır. Bu təkcə müxalifətin deyil, bütün düşünən insanların üzərinə düşən vəzifədir. Müxalifət elə bir vəziyyətdədir ki, bu gün o işi görə bilməz. Bunun obyektiv və subyektiv səbəbləri var. Bir tərəfdən müxalifət bütün resurslardan məhrum olub, heç bir ciddi informasiya vasitələrinə çıxışı yoxdur, əhali ilə ünsiyyət kəsilib. Reallıq bu gün belədir. Hökumətin alternativsiz təşviqata getməsinə gəlincə, bu anormal bir haldır. Lakin Azərbaycan üçün yenilik deyil. Azərbaycanda bütün seçkilər faktiki olaraq alternativsizlik şəraitində keçirilir".

KXCP sədri Mirmahmud Mirəlioğlu isə "Yeni Müsavat"a açıqlamasından partiyasının təşviqatı boykot etməsinin səbəblərindən danışıb, alternativsiz təşviqatı absurd adlandırıb: "Biz referendumu boykot etdik və xalqı bu referendumda iştirak etməməyə çağırdıq. Alternativsiz təşviqat aparmaq Azərbaycan hakimiyyətinin mahiyyətidir. Hökumət belə istəyir və ona da nail olur. Konstitusiyanın dəyişəcək müddəaları da hakimiyyətin alternativsiz, tək qalmasına hesablanıb. Hökumət seçici ilə tək qalıb, mən tam məsuliyyətimlə deyirəm ki, heç kim bu referendumda iştirak etməyəcək".

Müsavat Məclisinin sədri Nüşabə Sadıxlı isə "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, Müsavat Partiyası tərəfindən yaradılmış "Respublika" təşviqat qrupunun qarşısının alınmasının səbəbi partiyanın təşviqat prosesində iştirak etməməsinə nail olmaq idi: "Müxtəlif üsullarla qarşısı alındı, basqılar oldu, indi də imzatoplama kampaniyasında iştirak edən müsavatçılar təqib altındadır. Alternativ fikrin qarşısının alınmasında məqsəd bu referendumun mahiyyətinin cəmiyyətə açıqlanmasına mane olmaq idi. Alternativsiz təşviqat kampaniyasının aparılması isə absurddur. Elə bil ki, futbol oyunudur və meydançada yalnız bir komanda var, oyunun məqsədi də məlum deyil. Cəmiyyət də qeyri-müəyyənlikdədir. Hamı bir-birindən soruşur ki, bu referendumun səbəbi nədir, bu kimə lazımdır. Anormal bir vəziyyətdir".

❑ **Nərgiz LİFTİYEVA**

# Şirvandakı hərbi zavodda partlayışdan 40 gün ötdü

## Qəzanın gerçək səbəbi bilinmədi; istintaqın gedişindən də məlumat yoxdur

**Müdafiə Sənayesi Nazirliyinin (MSN) tabeliyində olan və Şirvanda yerləşən hərbi təyinatlı "Araz" zavodundakı partlayışdan 40 gün ötür. 2016-cı il iyulun 26-da baş verən partlayış nəticəsində 2 nəfər ölüb, 26 nəfər isə yaralanıb. Partlayışdan sonra fəaliyyəti iflic olmuş zavodda iş prosesi hələ də tam olaraq bərpa edilməyib.**



Partlayışdan ötən 1 ay 10 gün ərzində mütəxəssislər zavod ətrafından xeyli sursat, sursat qalığı toplasalar da, iş davam edir. Partlayış zamanı 20-25 kiloqram ağırlığında olan mərmi başlıqları bir neçə yüz metr hündürlüyə qalxaraq yüksək sürətlə yerə çırpılıb. Bir çox mərmi başlıqları 1 metrə qədər torpağın dərinliyinə girib. Mütəxəssislər minaaxtaranlarla həmin mərmi başlıqlarını axtarıb tapır, qazıyıb çıxarır və təhlükəsiz ərazilərə aparırlar.

Prezident İlham Əliyevin sərəncamı ilə "Araz" zavodunda baş vermiş partlayışla əlaqədar Dövlət Komissiyası yaradılıb. Baş nazirin 1-ci müavini Yaqub Eyyubovun sədrlik etdiyi komissiya ötən müddət ərzində bir neçə dəfə toplaşıb. Lakin mətbuata komissiyanın fəaliyyəti haqda məlumat verilməyib. Müdafiə Sənayesi Nazirliyi (MSN) də öz tabeliyindəki zavodlarda baş vermiş bu dəhşətli olayların araşdırılmasında maraqlı görünmür. 2015-ci il iyulun 6-da Şirvandakı hərbi təyinatlı "Telemexanika" zavodunda baş verən, 1 nəfərin ölümü, 19 nəfərin yaralanması ilə nəticələnən güclü partlayışdan sonra tezliklə olayın hansı səbəbdən meydana gəlməsinin açıqlanacağı gözlənilirdi. Amma bugünədək heç bir informasiya açıqlanmayıb...

MSN-in "Telemexanika" zavodunda 2015-ci ilin iyulunda baş verən olayın səbəbi gizli qaldığı bir vaxtda miqyasına və ölənlərin sayına görə daha dəhşətli partlayış 26 iyul 2016-cı ildə "Araz" zavodunda baş verib. Bu zavodda da partlayışın səbəbi ictimiyyətdən gizlədilir. MSN rəsmiləri partlayış baş verəndən sonra gizliliyi təmin etmək üçün əllərindən gələni əsirgədilər. Dəhşətli partlayışdan sonra yaralılara və olay zamanı ölən şəxslərin yaxınlarına maddi yardımlar göstərməklə onlara hadisə barədə danışmamaq tapşırılıb. Amma bu gün də zərərçəkənlər arasında baş verənlərə görə MSN rəhbərliyini günahkar bilən şəxslər var. Zərərçəkənlər, onların yaxınları olayın əsl səbəbinin üzə çıxarılmasını istəyirlər. Amma səlahiyyətsizlikləri üzündən buna nail ola bilmirlər. Səlahiyyət sahibləri isə həqiqətin üzə çıxmaması üçün hər addım atır. Məsələn olaydan sonra redaksiyamıza belə bir məlumat daxil olmuşdu ki, MSN-in tabeliyində olan "Üfüq" İstehsalat Birliyinin baş direktoru Ramiz Məmmədov yaralılarla şəxsən görüşməklə bir neçə aylıq ödənilməyən əmək haqqlarını ödəyib, onlara əlavə yardımlar ediləcəyini vəd edib. Əvəzində yaralılara partlayışla bağlı danışmamaq tələbi qoyulub. Danışan şəxslərə zavod fəaliyyətini bərpa edəndən sonra iş yerinə qaytarılmayacağı da eşitdirilib. Ondan əvvəl isə 1 il əvvəl partlayış baş vermiş "Telemexanika" zavodunun direktoru Usubağa Məmmədov "Araz" zavodunda baş verən partlayışda yaralananlara baş çəkərək onlara partlayışla bağlı danışmamağı, maraqlananlara olayın yüksəkgərginlikli elektrik xətlərindəki qəza üzündən baş verməsini deməyi tapşırması haqda xəbərlər almışdıq.

Zavodlardakı partlayışların səbəblərinin gizli saxlanmasına cəhdlər ortada ikən son partlayışın səbəbləri haqda ən müxtəlif xəbərlər dolaşmaqdadır. Olayın təxribat ola biləcəyi versiyası səslənməkdədir.

MSN dəhşətli olaydan 1 ay 10 gündən artıq müddət ötməsinə baxmayaraq, səbəbi açıqlamağa həvəsli görünmür. Bununla yanaşı, mətbuat nümayəndələrinin həqiqəti üzə çıxarmaq üçün yazdıqlarını önləmək yoluna baş vurmaqdan da çəkinmirlər. 2 nəfərin ölümü, 26 nəfərin yaralanması ilə nəticələnən partlayışın səbəbləri, fəsadların aradan qaldırılması ilə bağlı görülən işlərin nəticələri barədə məlumatlar ictimiyyətdən gizlədilir.

Bu məxfiliyin səbəbləri anlaşılmaz olaraq qalır.

"Araz" zavodundakı partlayış faktına görə Cinayət Məcəlləsinin 223.2 (partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarını pozma ağır nəticələrə səbəb olduqda) və 314.2-ci (səhlənkarlıq ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb. Ötən il iyulun 6-da Şirvanda "Telemexanika" zavodunda baş verən partlayışla bağlı Şirvan Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 223.2-ci (partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarını pozma ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanmışdı.

❑ **E.HÜSEYNOV**

# Cahangir Hacıyevin "Beynəlxalq Bank işi"ni siyasiləşdirməsinin pərdəarxası



**İqbal Ağazadə:** "Hadisələr ölkənin maliyyə sektorunda baş verib və bütün hökuməti əhatə edir"



**Pənah Hüseyn:** "Əsas məsələlər kənarda qalıb, məhkəmə kiçik işləri araşdırır"

**Beynəlxalq Bankın rəhbəri Cahangir Hacıyevin Bakı Ağır Cinayətlər Məhkəməsində maliyyə naziri Samir Şərifovu ittiham etməsinə sözügedən qurumdan cavab gəlib. Maliyyə Nazirliyinin mətbuat katibi Mayis Piriyev"APA-Economics"ə açıqlamasında bildirib ki, müttəhim kürsüsündə əyləşən bankın sabiq rəhbərinin həqiqəti əks etdirməyən və hər hansı fakta söykənməyən boğazdan yuxarı "açıqlamaları" törətdiyi cinayətləri siyasiləşdirmək, ictimaiyyətin diqqətini törətdiyi və bu gün məhkəmə predmeti olan əməllərindən yayındırmaq və mühakiməyə aidiyyəti olmayan məsələlərə yönəltmək məqsədi ilə istifadə edilən ucuz fəndlərdən başqa bir şey deyil".**

Bu açıqlamada diqqət çəkən məqamlardan biri C. Hacıyevin başına gələnləri siyasiləşdirmək cəhdində ittiham olunmasıdır.

Xatırladaq ki, bundan öncə də həbs olunan bəzi yüksək rütbəli dövlət məmurları müxalifətin və hüquq müdafiəçilərinin köməyilə ilə həbslərini siyasiləşdirməyə nail olmuş və beynəlxalq təşkilatlar tərəfindən siyasi məhbus kimi tanınmağa nail olmuşdular.

Bəs görəsən Cahangir Hacıyev həqiqətənmi törətdiyi iqtisadi cinayətləri siyasiləşdirməklə nəyəsə nail olmaq istəyir? Belə olduğu halda müxalifətdən və hüquq müdafiəçilərindən dəstək ala biləcəkmi?

Ümid Partiyasının sədri İqbal Ağazadə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu məsələ təkcə Beynəlxalq Bankı yox, bütün hakimiyyəti əhatə edir: "Bu dərəcədə açıq iqtisadi olan bir məsələnin siyasiləşmə tərəfi o ola bilər ki, Cahangir Hacıyev hakimiyyətin içərisində bizə məlum olmayan bəzi maliyyə məsələlərinin təfərrüatlarını açıqlasın və proses məhz o tərəfdən siyasiləşsin. Ancaq indiki halda siyasiləşdirmək çox çətindir. Çünki baş verən hadisələr ölkənin maliyyə sektorunda baş verib və bütün hökuməti əhatə edir. Ona görə də, bu haqda danışmaq bir az çətindir. Bundan sonrakı prosesləri izləmək lazımdır". Müxalifətin və hüquq müdafiəçilərinin Cahangir Hacıyevi müdafiə etməsinə gəlincə, İqbal Ağazadə bildirdi ki, məhkəmənin sonuna qədər səslləndirilən fikirlərə və məhkəmə araşdırmasının nəticəsinə əsasən bunu demək olar: "Gəlin məhkəmənin sonunu gözləyək. O zamana qədər səslənən qarşılıqlı ittihamlara, məhkəmə araşdırmalarının nəticəsinə əsasən fikir bildirmək olar".

Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, 12 milyard manat mənimsəmə müqabilində məhkəmə daha kiçik yeyinti faktlarını araşdırır və sanki məsələni ört-basdır etmək istəyir: "Mən məhkəmə materiallarını əvvəldən izləmişəm və orada siyasiləşdirmək məqsədi görməmişəm. Əksinə, əsas məsələlər kənarda qalıb, məhkəmə nisbətən daha kiçik məsələləri araşdırır. Düzdür, onlar da araşdırılmalıdır, ancaq məlum olur ki, Beynəlxalq Bankdan yoxa çıxan milyardlarla vəsaitlərin ümumiyyətlə bu məhkəmə işinə aidiyyəti yoxdur. Söhbət 12 milyard manat vəsaitlə müqayisədə yalnız 250 milyon mənimsəmədən gedir. Məncə, burada siyasi məsələlər onsuz da var. Çünki 12 milyardlıq mənimsəmənin yoxa çıxması qəribə görünür, məsələnin bu tərəfi araşdırılmır. Hətta belə təəssürat yaranır ki, məhkəmə bu faktlarla həmin hadisəni ört-basdır etmək istəyir. Hər halda məhkəməyə verilən faktlar bunlardır, söhbət ümumiyyətlə bu işin istintaqından və tədqiqatından gedir. Beynəlxalq Bankın rəhbəri, təbii ki, törətdiyi cinayətlərin cavabını verməlidir. Ancaq onun səsləndirdiyi suallara da Azərbaycan hökuməti əsaslı şəkildə, sübutlarla, dəlillərlə cavab verməlidir. Təbii ki, Cahangir Hacıyevin də müdafiə olunmaq hüququ var, o da öz mövqeyini müdafiə edir. O baxımdan onun dediklərinin üstündən keçmək də doğru deyil. Ola bilər ki, hansısa məhkəmə qərarı olsun və bu məsələ ört-basdır olunsun. Məsələnin onsuz da siyasi mahiyyəti var. Cəmiyyətdə onsuz da bu suallar var".

❑ Nərgiz LİFTİYEVA

**Azərbaycan Beynəlxalq Bankı İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyevin məhkəməsində günahkar olmadığını iddia etməsi, həmçinin maliyyə naziri Samir Şərifovu bir çox məsələlərdə günahlandırması yenidən diqqət mərkəzindədir. Ölkənin maliyyə sistemində əhəmiyyətli olan bu iki fiqurun arasındakı çəkişmə məhkəmə zalında da davam edir. Beynəlxalq Bankdan izsiz-tozsuz çıxarılaraq mənimsənilən səkkiz milyard manatla bağlı günahkar axtarışı isə davam edir. Doğrudanmı, Maliyyə Nazirliyi, həmçinin Beynəlxalq Bank rəhbərliyi bundan xəbərsiz olub? Ekspertlər vurğulayırlar ki, həmin milyardlar xəbərsiz mənimsənilə bilməzdi. Səlahiyyətli qurumlar isə bundan xəbərdar olsalar da, hansısa səbəblərdən susublar. Bu isə onların da məsuliyyətini artırır.**

# Beynəlxalq Bankda mənimsənən milyonlara görə məsuliyyət davası

## Həbsdəki bankir günahı üzərindən atır, əslində isə…

Ekspert Əkrəm Həsənov məsələ ilə bağlı musavat.com-a bildirib ki, mənimsənilən milyonlardan istənilən halda Maliyyə Nazirliyi və nazir xəbərdar olmalı idi: "Çünki Samir Şərifov Beynəlxalq Bankın Müşahidə Şurasının sədri olub. Müəyyən məbləğdən yuxarı olan kreditlərin verilməsinə qanuna görə Müşahidə Şurasının qərarı lazımdır. Maliyyə nazirinin burada məsuliyyəti var. Bu, bir növ ona bənzəyir ki, müqayisə aparaq, ailədir, pul ehtiyacı var və arvad bunu xərcləyir. Nə azı ərin də buna icazəsi, razılığı lazımdır. Əgər arvad elə xərcləyirsə, ər də buna nəzarət etmirsə, demək olarmı ki, onun heç bir məsuliyyəti yoxdur? Var. Qanunda da deyilir ki, Müşahidə Şurasının sədri müəyyən məbləğdən yuxarı kreditlərə razılıq verməlidir. Hamı da bilirdi ki, Beynəlxalq Bankda böyük məbləğdə kreditləri elə sağa-sola paylayırlar. Maliyyə Nazirliyi də başda maliyyə naziri olmaqla bunu bilməli idi. Əslində Cahangir Hacıyev Müşahidə Şurasının razılığı olmadan verib bu kreditləri. İndi Maliyyə Nazirliyi çıxış edib deyir ki, kreditlər bizim razılığımız olmadan verilib. Cahangir Hacıyev nəinki Müşahidə Şurası ilə hesablaşmayıb, heç Maliyyə Nazirliyinin işçilərini Beynəlxalq Bankın binasına buraxmırdı. Yəni Mərkəzi Bankın da işçilərini həmçinin əksər hallarda Beynəlxalq Bankın binasına buraxmırdı. Amma kreditləri verib, razılığı da almayıb. Amma Samir Şərifovun əlində səlahiyyətlər olub. Müşahidə Şurası müəyyən qərarlar qəbul edə bilərdi buna görə. Başa düşürəm, burada da maliyyə naziri deyə bilər ki, Cahangir Hacıyevin arxasında Eldar Mahmudov kimi güclü adam durub. Ona görə bunları edə bilmirdik. Amma ən pis halda, Beynəlxalq Bankın Müşahidə Şurasının sədri postundan istefa verərdi. Yəni çıxıb deyərdi ki, "Dövlət başçısı, siz məni bu vəzifəyə təyin etmisiz, öhdəsindən gələ bilmirəm, məni saymırlar". Ən azı bunu etməli idi. Bunu da etməyib. Cahangir Hacıyev son məhkəmələrdə çıxışlar edir. Deyir ki, guya bütün bunlara görə Samir Şərifov günahkardır. Əlbəttə, bunlar həqiqətə uyğun deyil. Beynəlxalq Bankda baş verənlərə görə ən azı 90 faiz cavabdeh Cahangir Hacıyevdir. Məsuliyyəti öz boynundan başqalarının üzərinə atmasın. Amma eyni zamanda, hesab edirəm ki, başda Elman Rüstəmov olmaqla, Mərkəzi Bankın da, başqa Samir Şərifov olmaqla Maliyyə Nazirliyinin də məsuliyyəti var. Ən azı, ona görə ki, onları saymayıblar, nəzarət etməli olduqları halda, edə bilməyiblər. Buna görə də heç bir tədbir görməyiblər".




Ekspert Qubad İbadoğlu isə qeyd edib ki, Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyevin ittihamlarına cavab olaraq, Maliyyə Nazirliyinin son açıqlaması bir çox kölgəli məsələlərə işıq salır: "Bu açıqlamadan bəlli olur ki, Beynəlxalq Bank 2009-cu ilin oktyabrından 2015-ci ilin martına qədər yaxınlarından ibarət olan hüquqi və fiziki şəxslərə zəmanətsiz 1,3 milyard manat, 1,4 milyard dollar və 300 milyon avro verib, ölkədən 3,7 milyard dollar, 1,1 milyard avro çıxarıb. Bu o deməkdir ki, ölkədə 6 il ərzində nə bank-maliyyə nəzarəti, nə də valyuta-gömrük nəzarəti sistemi işləməyib, bu funksiyaları həyata keçirən Mərkəzi Bank, Maliyyə Nazirliyi və gömrük orqanları üzərinə düşən adi vəzifələrini belə icra etməyiblər, beləliklə də Cənubi Qafqazın ən böyük bankında rasional idarəçilik deyil, məqsədyönlü talançılıq olub, nəticədə dövlət maliyyə sisteminin balansı pozulub, bank sisteminin "onurğa sütunu" zədələnib. Belə faktlar sivil ölkələrdə açıqlansaydı, ilk növbədə maliyyə-bank, valyuta nəzarətinə məsul olan bütün orqanların rəhbərləri istefa verər və onlar dərhal məsuliyyətə cəlb olunardı. Bəlkə də bu illər ərzində 3,7 milyard dollar, 1,1 milyard avro ölkədən çıxarılmasaydı, eləcə də milyardlarla manat kredit zəmanətsiz verilməsəydi hazırda milli valyutanın durumu bu dərəcə acınacaqlı olmazdı".

Digər iqtisadçı-ekspert Samir Əliyev sual edir ki, Beynəlxalq Bankın Müşahidə Şurası (Maliyyə Nazirliyi) niyə 6 il müddətində zəruri tədbir görməyib? "Qanunsuzluqları sadalamaqla deyil, konkret tədbirlər görmək lazım idi. Bu işdə Müşahidə Şurası Cahangir Hacıyev qədər məsuliyyət daşıyır", deyə ekspert belə hesab edir.

Başqa bir iqtisadçı Rövşən Ağayev isə azadliq.org-a Beynəlxalq Bank vasitəsilə 8 milyard dollara yaxın vəsaitin iki kanalla mənimsənildiyini deyib: "Bir kanal ondan ibarətdir ki, ayrı-ayrı vətəndaşların adına iri məbləğdə kredit yazılıb, şəxsi məqsədlər üçün istifadə edilib. Sonra həmin vəsaitlərin xeyli hissəsi ümidsiz borc kimi rəsmiləşdirilib. Başqa kanal bu olub ki, ofşor zonalarda şirkətlər qeydiyyatdan keçirib, Bankın vəsaitlərini onların veksellərini almaq adı ilə ölkədən çıxarıblar. Həmin vəsaitləri xaricdəki şirkətlərinə və hesablarına yönəldiblər". Ekspertin fikrincə, 8 milyard dollar Azərbaycanın 7-8 illik təhsil, az qala 20 illik səhiyyə, 5 illik sosial müdafiə xərclərinə bərabər bir məbləğdir. R.Ağayev hesab edir ki, bu qanunsuz işlərdə C.Hacıyev tək günahkar deyil. Ekspert vurğulayıb ki, Maliyyə Nazirliyi bütün günahları C.Hacıyevin üzərinə qoysa da, bu işə görə ölkənin bütün maliyyə sisteminin rəhbər şəxsləri, bütövlükdə hökumət məsuliyyət daşıyır.

Hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində mühakimə olunan Azərbaycan Beynəlxalq Bankı İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyev ötən il dekabrın 5-də Nərimanov rayon Məhkəməsinin qərarı ilə həbs edilib. Onunla birgə daha 7 nəfər məhkəmə qarşısına çıxarılıb. Onlar mütəşəkkil dəstə tərəfindən külli miqdarda mənimsəmə, vəzifə səlahiyyətlərindən sui-istifadə, vəzifə səlahiyyətlərini aşma, vəzifə saxtakarlığı, qanunsuz silah saxlama maddələri ilə ittiham edilirlər. Bu maddələrin sanksiyasında 7 ildən 12 ilədək həbs cəzası nəzərdə tutulur.

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 196 (6517) 5 sentyabr 2016

**25 il müstəqil Özbəkistanın prezidenti olmuş İslam Kərimovun fəaliyyəti, daxili və xarici siyasəti sosial şəbəkələrdə geniş müzakirəyə səbəb oldu. Xüsusilə müxalifət camesi mərhum prezidenti diktator adlandırır, onu sərt tənqid edirlər.**




# İslam Kərimov Azərbaycana qarşı - faktlar

## İsa Qəmbər: "Kərimov dedi ki, Azərbaycan buranı tərk etməlidir"

## Qabil Hüseynli: "Özbəkistan prezidenti dedi ki, əgər gündəmə Dağlıq Qarabağ və Ermənistanla bağlı məsələ daxil edilsə, toplantını tərk edəcək"

Milli Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbər sosial şəbəkədə İslam Kərimovla bağlı bir xatirəsini paylaşıb. Həmin yazıda İ.Qəmbər İ.Kərimovun Azərbaycanla bağlı mövqeyinə diqqət çəkib. İ. Qəmbər bildirib: "1992-ci il 6 iyulda Moskvada MDB (Müstəqil Dövlətlər Birliyi) sammitində iştirak edirdim. Azərbaycan o mərhələdə MDB üzvü olmasa da, Rusiya prezidenti Yeltsin təkidlə xahiş edirdi ki, Elçibəy bu sammitdə iştirak etsin. Əbülfəz bəyin təklifi və qərarı ilə mən gedəsi oldum. MDB sammiti keçirilən otağa daxil olanda dövlət başçılarının demək olar ki, hamısı artıq ordaydılar. Mən də dəyirmi masada Azərbaycana ayrılmış kresloya əyləşdim. Yeltsin açılış nitqi etdi, iştirakçıları salamladı və gündəliyi təqdim etmək istəyəndə Özbəkistan prezidenti İslam Kərimov söz aldı və soruşdu ki, Azərbaycan hansı əsasla burda iştirak edir. Yeltsin ona cavab olaraq dedi ki, Azərbaycan müşahidəçi statusu ilə iştirak edir və yenə gündəliyə keçmək istərkən Kərimov bir daha söz aldı, dedi ki, MDB-nin rəsmi sənədlərində müşahidəçi statusu yoxdur və Azərbaycan buranı tərk etməlidir. Yeltsinə baxdım, gördüm ki, susur. Söz aldım və dedim ki, Azərbaycanın əvvəlki dövlət başçısı Mütəllibov MDB-nin yaranması və ölkəmizin MDB-yə daxil olması barədə sənədlərə imza atıb, amma Azərbaycan parlamentində bu məsələ ratifikasiya edilməyib. Azərbaycanda hakimiyyətə yeni qüvvələr gəlib. Yəqin ki, yaxın zamanlarda biz bunu müzakirə edib, müsbət, ya mənfi qərar qəbul edəcəyik və qeyri-müəyyənlik aradan qalxacaq".

İ.Qəmbər bildirib ki, Ukrayna prezidenti Kravçuk və Belarus prezidenti Şuşkeviç gərginliyi azaltmaq üçün söhbətə qatıldılar, qısa çıxışlarla ona dəstək olublar və Azərbaycana zaman tanınmasını məqsədəuyğun saydıqlarını bildiriblər: "Yeltsin bu çıxışlardan məmnun olub gündəliyə keçmək istəyəndə Kərimov yenə əsəbi halda bildirdi ki, nə vaxt Azərbaycan MDB Bəyannaməsini ratifikasiya edərsə, o zaman burda təmsil oluna bilər. Söz aldım və bildirdim ki, bizi bura dəvət ediblər gəlmişik, bizə dəstək və zaman verən dövlət başçılarına təşəkkür edirəm, amma əgər hamı belə düşünmürsə problem yoxdur və biz parlamentdə MDB sənədlərinin ratifikasiyasını müzakirə edərkən bütün bunları da nəzərə alacayıq.

Kreslodan qalxmaq hərəkətinə başladım və o anda Yeltsin nəhayət dedi ki, Azərbaycan nümayəndə heyətini o dəvət edib və Azərbaycanın müşahidəçi statusu ilə iştirakını hələlik mümkün sayır. Bundan sonra Kərimov bir söz demədi. Bilmirəm, bu yazdıqlarım Kərimovu türk dünyasının liderlərindən biri sayanlara kömək olacaq, yoxsa onu sorğu-suala tutan İnkir-Minkirin işinə yarayacaq. Amma hər halda tarix üçün bunları yazmaq istədim".

"Yeni Müsavat"a danışan ADP sədri Sərdar Cəlaloğlu da İ. Kərimovun diktator olduğunu bildirib: "Özündən sonra özbək xalqı və dövləti üçün çox ciddi zərbələr qoyub getdi. Azərbaycanla da münasibətləri yüksək səviyyədə olmayıb. Misal üçün, bir məqama diqqət edək ki, 20 ildir Azərbaycanda Özbəkistan səfirliyi üçün yer ayrılsa da bu, tikilməyib. Rusiya səfirliyinin yanındakı yer Özbəkistan səfirliyinindir. İndi nə dərəcədə əlaqələrdən danışmaq olar?"

Politoloq Şahin Cəfərli: "Məlumat əldə etməyin çox asanlaşdığı hazırkı bilgi çağında insanlarımız yenə dezinformasiyalara etibar edir və asanlıqla aldanır. Özbəkistanın Ermənistanla diplomatik əlaqəsi var, sadəcə, İrəvanda səfirliyi yoxdur. Ermənistan ümumilikdə 149 dövlətlə diplomatik əlaqə qurub, onlardan yalnız 30-a yaxını İrəvanda səfirlik açıb. Bu, o demək deyil ki, səfirlik açmayan ölkələrin hamısının Ermənistana münasibəti mənfidir və ya onlar bunu Azərbaycana görə ediblər (Azərbaycanda səfirliyi olmayan xeyli dövlət də var). Qarabağ məsələsi ilə əlaqədar Ermənistanla münasibət qurmayan, yaxud işğalçıya qarşı sanksiya xarakterli addım atan cəmi 3 dövlət var: Pakistan, Səudiyyə Ərəbistanı və Türkiyə. Pakistan və Səudiyyə Ərəbistanı Ermənistanı tanımayıb, Türkiyə isə Ermənistanı tanısa da, işğal probleminə görə bu ölkədə səfirlik açmayıb və sərhədləri bağlayıb".

Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Yeni Müsavat"a açıqlamasında vəzifədə işlədiyi dönəmlərdə Kərimovla bağlı şahidi olduğu iki hadisəni danışdı: "1994-cü ildə İstanbulda türk dövlətlərinin başçılarının zirvə toplantısı keçirilirdi. Orada mən də iştirak edirdim. Daha sonra zirvə toplantısı Türkmənistanda keçirildi və orada yenə də iştirakçı idim. Amma daha çox İstanbul toplantısı yaddaşıma həkk olunub. Çünki o toplantıda demək olar ki, müstəqilliyini əldə etmiş türk dövlətlərinin hamısının rəhbərləri iştirak edirdi. Gündəlik formalaşdırılarkən Süleyman Dəmirəl bildirdi ki, kimin təklifi var. Rəhmətlik Heydər Əliyev təklif etdi ki, ərazilərimizi işğal edən Ermənistanla münasibətləri və türk dövlətlərinin Dağlıq Qarabağ probleminin həlli istiqamətində bizə edəcəkləri köməyi müzakirə etsək çox yaxşı olardı. İclasda mən və Heydər Əliyevdən başqa Vəfa Quluzadə də iştirak edirdi. Təklifin ilk əleyhinə çıxan şəxs İslam Kərimov oldu. O bildirdi ki, biz buraya türk dövlətləri arasında iqtisadi əlaqələri yaxşılaşdırmaq üçün toplaşmışıq, buraya siyasi məsələləri, xüsusilə, dövlətlərarası münaqişələri müzakirə etməyi məqbul saymıram. Onun ardınca Türkmənistan rəhbəri İslam Kərimovun mövqeyini müdafiə etdi. O, Ermənistanla əlaqələrinin olduğunu söylədi. Müzakirələr olarsa, Ermənistanla münasibətlərinin korlana biləcəyini də vurğuladı. Dəmirəl əlavə etdi ki, canım, niyə bu ziyan gətirməlidir, biz eyni dilə, mədəniyyətə malik xalqlarıq, bunlardan birinin başına faciə gəlib, bu faciəni dəf etmək üçün əlimizdəki imkanlardan istifadə etsək, pis olar? Onun dediklərini tərcümə edəndə, Türkmənbaşı ona heç nə demədi. Amma İslam Kərimov söylədi ki, əgər gündəmə Dağlıq Qarabağ və Ermənistanla bağlı hər hansı bir məsələ daxil ediləcəksə, toplantını tərk edəcək. Üz gizgilərindən onu deyə bilərəm ki, çox əsəbi idi. Dəmirəl çox təcrübəli şəxs idi. Belə olan halda o razılaşdı və dedi ki, türk dövlətləri bir-birinin dərdlərinə şərik olmalıdır, istəmirsinizsə müzakirə etməyək, Heydər bəy də bizdən inciməz. Sonradan Aşqabad toplantısında da rəhmətlik bu məsələni yenidən qaldırmağa cəhd etdi. Orada da hər ikisi buna etiraz etdilər. Onlar belə əsaslandırdılar ki, biz hələ ki, ümumi türk bazarının formalaşdırılması istiqamətində çalışmalıyıq. Lazım gələrsə, gələcəkdə Qarabağ məsələsinə dair bəyanat verə biləcəklərini söylədilər. Bu məsələlər bununla bitdi. Sonradan mən işdən çıxdım. Amma mən bilən sonrakı sammitlərdə də bu məsələ gündəmə gəlməyib".

Politoloq İ.Kərimovun belə bir addım atacağına qəti şəkildə inanmadığını da qeyd etdi: "Qarabağ məsələsinə görə Özbəkistanın Ermənistanla diplomatik əlaqələri kəsdiyini Etibar Hüseynovun yazısından oxudum. Belə məlumatları açığı yeni eşidirəm. İki sammitdə Qarabağ müzakirəsini rədd edən, hətta sammiti tərk edəcəyi ilə hədələyən bir şəxsin sonradan belə addım atacağı inandırıcı görünmür. Buna heç yerdə də rast gəlməmişəm. Özbəkistan Ermənistanla birlikdə Kollektiv Müdafiə Təşkilatının təsisçiləri sırasına daxil idi. Avrasiya Birliyini də qeyd edə bilərik. İslam Kərimov gah Rusiya, gah da ABŞ meylli siyasət yürüdürdü. Xarici siyasətdə dəyişiklikləri sevən bir rəhbər idi. Türkiyə ilə münasibətləri pisləşən zaman Azərbaycanla da soyuqlaşdı. O, dövlət çevrilişinin başında Türkiyənin dayandığını iddia edirdi. Guya çevrilişdə iştirak edənlər Azərbaycandan qalxan təyyarə ilə Özbəkistana yola salınıb. Amma Azərbaycanın bu çevriliş cəhdi ilə əlaqəsi yox idi. Türkiyə də inkar etdi, onlarla heç bir əlaqələrinin olmadığını bildirdi. Əfqanıstandan olduqlarını qeyd etdilər. Təsadüfi deyil ki, məğlub olandan sonra həmin şəxslər Əfqanıstana qaçdılar. İslam Kərimovun Azərbaycana görə Ermənistanla əlaqələri kəsdiyinə və böyük bir türk həmrəyliyi göstərdiyinə inanmıram".

❑ **Cavanşir ABBASLI, Əli RAİS**

# Nazarbayev iqtisadiyyatı tənzimləmək üçün qlobal təşkilat yaradılmasını təklif edib

**Qazaxıstan prezidenti Nursultan Nazarbayev iqtisadiyyat və maliyyəni tənzimləmək üçün qlobal təşkilat yaradılmasını təklif edib.**



APA-nın "RİA Novosti" agentliyinə istinadən verdiyi məlumata görə, bu gün Çinin Xançjou şəhərində keçirilən "Böyük iyirmilik" (G20) sammitində çıxış edən N. Nazarbayev deyib ki, hazırda dünya iqtisadiyyatının inkişaf tempi, ticarət və kapital dövriyyəsi azalır.

Qazaxıstan prezidenti qeyd edib ki, qlobal inkişaf yolu dünya ictimaiyyətinin birgə fəaliyyətindən çox asılı olacaq: "Buna görə də beynəlxalq iqtisadiyyatın və maliyyənin tənzimlənməsində vahid qlobal təşkilat əsas rol oynamalıdır. Belə strukturu BMT-nin İqtisadiyyat və Sosial Şurasını Qlobal İnkişaf Şurasına transformasiya etməklə yaratmaq olar. Bu struktura qlobal iqtisadiyyatın tənzimlənməsi funksiyası həvalə olunmalıdır. Dünya iqtisadiyyatını canlandırmaq üçün yeni sənaye inqilabına, rəqəmsal iqtisadiyyata və innovasiyalara dəstək vermək lazımdır".

N.Nazarbayev G20 ölkələrinin və digər maraqlı ölkələrin terrorizm üzərində tam qələbə üçün səylərini birləşdirməsinin bu yolda yaxşı başlanğıc ola biləcəyini də vurğulayıb: "Bunu bütün dünya ictimaiyyəti gözləyir".



# Hamısı bir boyda gəzən gözəllər

**Zamin HACI**
zaminhaci@gmail.com

**Müstəqilliyə təzə addım atanda, 1990-ların əvvəlində Türkiyədən bizə bir mahnı da gəlmişdi, tez-tez televizorda verirdilər, hamının dilində əzbər olmuşdu, insafən, oynaq, yaddaqalan mahnı idi:**

***"Özbək, türkmən, qırğız, qazax, azər bir boydur, Qaraqalpaq, qırğız, qazax bunlar bir soydur".***

Başqa sözləri də vardı, ancaq mənə elə bu hissə lazımdır. Özbək qardaşlarımızın ümummilli lideri İslam müəllim öləndən sonra bütün Özbəkistanı bürüyən ağlaşmaya təsadüfi baxmaq olmaz, bunlar doğrudan bizim qardaşlarımızdır. Çox uzağa getmədən elə indiki vaxtdan misal çəkəcəyəm.

Neftin qiyməti düşəndən bizdə guya qeyri-neft sektorunun inkişafından danışılır. Son günlər rəhbərliyin regionlarda çıxışlarında neftdən uzaqlaşıb təzə iqtisadiyyat qurmağımız xüsusi reklam edildi. Ancaq rəqəmlər tərsini deyir. Misal üçün, 2016-cı ildə qeyri-neft sektorumuz ötən ilə nisbətdə 17 faiz geriləyib. Hələ bu, 8 ayın yekunudur, ilin axırına lap pis olacaq. Bəs bunun özbəklərə nə dəxli?

Söhbət ondadır ki, Özbəkistan İslam Kərimovun rəhbərlikdə olduğu 25 ildə elə bu cür goplarla idarə edilirdi. Guya Özbəkistan müstəqillik qazandığı 25 ildə (necə də xoşbəxtdirlər - müstəqillik dövründə bircə rəhbərləri olmuşdur!) Ümumi Daxili Məhsul 3 dəfə artıb, iqtisadiyyatda hər il 8 faiz artım olur, əhalinin gəlirləri 9 faiz artıb və sairə. Ancaq soruşan yox idi ki, nə üçün özbəklər bu cür inkişaf edən ölkədən baş götürüb qaçırlar - rəsmi statistikaya görə hazırda Rusiyada işləyən xaricilərin sayında ən böyük rəqəm özbəklərə məxsusdur. 3 milyon nəfərə yaxın özbək ordadır və adətən fəhlə, dalandar, bazar satıcısı kimi ən aşağı, ən çətin, ən az gəlirli sahələrdə zülüm çəkməyə razıdırlar, təki öz vətənlərində Kərimovun yaratdığı cəhənnəmə qayıtmasınlar. Hələ uçota düşməyən özbək nə qədərdir - şeytan bilir.

Ancaq hərdən xoruzun quyruğu görünürdü. 2012-ci ildə Özbəkistan Statistika Komitəsi ölkədən xaricə mal satışının (ixrac-eksport) 5,1 faiz azaldığını bildirmişdi. Halbuki, bundan cəmi 1 ay qabaq İslam Kərimov eksportun 11 faiz artdığını deyibmiş!

Özbəklərlə oxşar cəhətlərimizdən biri də pambıq əkməyimizdir. Orada sovet kolxoz ənənəsinə bənzər bir şey qüvvədə qalır, fermerlərə dövlət sifarişi adıyla zorla pambıq əkdirirlər, sonra da ucuz qiymətə dövlət özü alır. Yalnız 20 faiz kəndlinin nisbi özəl torpağı var, qalanı hamısı dövlətin əlindədir. Pambıq əkmək istəməyənin başında turp əkirlər. İşgəncələr, həbslər adi haldır. Məktəbləri bağlayıb uşaqları pambıq yığmağa basmaq da öz yerində. Bax, indi biz də bu tariximizə qayıdırıq. Artıq rayonlarda pambıq əkinlərini çoxaldırlar, təzə konstitusiyaya isə özəl torpağından faydalı istifadə etməyən kəndlinin əlindən bu torpağı almaq maddəsi salınır. Loru dildə yazsam, əgər sabah sən pay torpağında dövlət sifarişi ilə pambıq əkmək istəməsən, dövlətin o torpağı qapazlamaq ixtiyarı yaranır.

Yeri gəlmişkən, indi Kərimovun yerinə ən real namizədlərdən sayılan baş nazir Şavkat Mirziyayev vaxtilə Cizak vilayətində icra hakimi işləyəndə universitet müəllimini tələbələri yağışda pambıq yığmağa göndərmək istəmədiyi üçün döyüb öldürübmüş. Söyüşcülün də biriymiş, indinin özündə Nazirlər Kabinetində işçiləri döyür, söyür.

Özbək xüsusi xidmətinin şefi Rüstəm İnoyatov isə başqa tipdir, təsəvvür edin, bu da hardasa 25 ildir Milli Təhlükəsizlik Xidmətinə başçılıq edir, jurnalistlər isə onun yaxından fotosunu yalnız bir-iki il qabaq çəkə biliblər! Sözün əsl mənasında, şəklini çəkəni məhv edirmiş! Bu mənə bizim MTN şefinin gömrükdə yaxın adamı kimi adı hallanan Broker Əbülfəz müəllimi xatırlatdı. Çünki Əbülfəz müəllimin də son dövrlərə qədər heç bir fotosu mətbuata məlum deyildi. Halbuki, adam Gömrük Komitəsindən böyük - 5000 nəfərlik pulyığan banda yaratmışdı.

Türkmənləri bilirsiniz, orda kimi prezident qoysan "türkmənbaşı" alınır. Qırğızlar nisbətən babat görünürdü, hətta bizə nisbətən iki dəfə inqilab edib prezident qovublar son illərdə, ancaq ora da düzəlmir, çünki demokratiya zorla olmur, gərək xalq özü azadlığı istəsin. Qazaxların da əvəzedilməz lideri Nursultan müəllim camaatın təpəsinə döyə-döyə 25 ildir oranı fırladır. Bizi də yazmıram, çünki növbəti yazıları yazmağımı yəqin istəyərsiniz.

Uzun sözün qısası, o mahnını yazan adam ya tarixi çox gözəl bilib, ya da uzaqgörən adam olubdur. Yazımın başlığını öz mahnımızdan qoydum ki, milli olsun.

# Rəsmi Bakının Avropanın mərkəzindən savaş mesajı



# Azərbaycanın baş diplomatından müharibə xəbərdarlığı - sərin payızın qaynar seçimi yaxınlaşır

Elmar Məmmədyarovu ATƏT toplantısında sərt çıxışa vadar edən əsas motiv; apreldəki 4 günlük savaşdan bu gün 5 ay ötür, sülh danışıqları isə hələ də dalandadır - səbəb...; zaman indi Ermənistanla yanaşı, vasitəçi dövlətlərin də əleyhinə işləyir; ekspertlər deyir ki...

**Apreldəki hərbi eskalasiyadan - Azərbaycan Ordusunun əldə elədiyi mühüm blits-hərbi qələbədən bu gün 5 ay ötür. Bu hərbi qələbə şübhəsiz, 22 illik atəşkəs dövründə status-kvonu ilk dəfə Azərbaycanın xeyrinə dəyişmiş oldu. Çünki işğalçı tərəfin özü haqda on illərdir yaratdığı və danışıqlar masasında ölkəmizə, hətta vasitəçi güclərə qarşı siyasi təzyiq kimi istifadə elədiyi məğlubedilməz mifi darmadağın edildi, müharibənin hələ bitmədiyini həm təcavüzkara, həm də onun arxasındakı qüvvələrə aydın şəkildə nümayiş etdirdi.**

Bu, əslində Azərbaycan əsgərinin yaratdığı tam yeni bir situasiya idi və onu istəsə də, istəməsə də ən əvvəl ATƏT-in Minsk Qrupunun həmsədrləri nəzərə və ciddiyə almalı idilər. Hər necə olmasa, təmas xəttində və danışıqlar masası arxasında qüvvələr nisbəti artıq əvvəlki kimi deyildi, Bakının xeyrinə dəyişmişdi. Bu da vasitəçilərin problemin həllinə ənənəvi şablon yanaşmaya son qoyub, nəhayət, realist və konstruktiv mövqe tutmasını zəruri edirdi.

4 günlük müharibə eyni zamanda münaqişənin ədalətli şəkildə çözülməyəcəyi təqdirdə hər an böyük müharibə şəklində alovlana biləcəyi barədə Azərbaycan əsgərinin, Bakının həmsədr ölkələrə aydın bir mesajı idi. Bu, habelə Azərbaycan xalqının işğal rejiminə dözüm limitinin bitdiyi haqda sonuncu xəbərdarlıq mesajı idi.

*****

Əfsus ki, 4 günlük müharibənin əsas dərsləri öncə ciddiyə alınsa da, nizamlama prosesində müəyyən canlanma özünü göstərsə də, üstündən 5 ay ötəndən sonra - indi aprelin ibrət dərsləri sanki məqsədli şəkildə unudulmuş kimidir. Belə təəssürat yaranır ki, münaqişə ətrafında durum təzədən əvvəlki status-kvoya qayıdıb, işğalçı Ermənistan təzədən özünü cəzasızlıq mühitində, arxayın hiss etməyə başlayıb .

Bu isə çox təhlükəli bir durumdur, nədən ki, ermənilərin arxayınçılığına əsas yoxdur, bu - yalançı arxayınçılıqdır. Lap dəqiqi, müharibə hər an qızışa bilər, üstəlik, bu dəfə daha geniş miqyasda. Çünki aprel döyüşlərinin danışıqlar prosesində real siyasi nəticəsini görməyən Azərbaycan Ordusunu bu dəfə dayandırmaq mümkün olmayacaq, rayonlar bir-birinin ardınca azad ediləcək.

Rusiyalı tanınmış politoloq, prezident Vladimir Putinin müşaviri Sergey Markov da tam haqlıdır deyəndə ki, o halda müharibə təkcə 7 rayonla məhdudlaşmayacaq, Dağlıq Qarabağın ərazisinə də girəcək. Bu mənada zaman indi işğalçı Ermənistanla yanaşı, obyektiv səbəblərdən müharibə arzulamayan həmsədr dövlətlərin də əleyhinə işləyir.

*****

Şübhə yox ki, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov məhz bu və digər reallıqları nəzərə alaraq ötən həftə Almaniyanın Potsdam şəhərində ATƏT xarici işlər nazirlərinin qeyri-formal toplantısında Qarabağ mövzusunda çıxışını sərt notlar üzərində qurmalı oldu, Ermənistanın işğal altında saxladığı ərazilərimizdən çıxmasının vaxtının çatdığını bir daha aidiyyəti ünvanlara və paytaxtlara çatdırdı.

Bu, əslinə qalsa, Azərbaycanın növbəti, bu dəfə daha aydın müharibə xəbərdarlığı idi, Azərbaycan xalqının səbir limitinin bitdiyi haqda son dəfə Avropaya, demokratiya paytaxtlarına, vasitəçi güclərə xəbərdarlıq mesajı idi. Bu xəbərdarlıq və mesajlar, nəhayət, ünvana çatacaqmı, ciddiyə alınacaqmı?

Hələlik söyləmək çətindir. Yalnız bunu qeyd eləmək olar və bir çox analitiklər də bu haqda xəbərdarlıq etməyə başlayıb ki, sentyabr ayı da danışıqlar prosesində ciddi dönüş olmasa, Qarabağ münaqişəsi tarixində bu payız yaydan da qaynar bir dönəm kimi qala bilər.

*****

"Məmmədyarovun Dağlıq Qarabağla bağlı mövqeyi kifayət qədər sərtdir və bu sərtlik ona görədir ki, vaxt gedir". Bu sözləri Axar.az-a açıqlamasında politoloq Rasim Musabəyov deyib. Onun sözlərinə görə, mahiyyətcə ciddi danışıqlar getməlidir, ancaq ermənilər hazırda bundan boyun qaçırırlar: "Məmmədyarov bu məsələyə orada toplaşan xarici işlər nazirlərinin diqqətini cəlb edə bilib. Onun Dağlıq Qarabağla bağlı mövqeyi kifayət qədər sərtdir və bu sərtlik ona görədir ki, vaxt gedir. Paralel surətdə həmsədrlər eyni zamanda Moskvada görüşürlər. Düşünürəm ki, bunun arxasınca Məmmədyarov Rusiya xarici işlər naziri Sergey Lavrovla da dialoqda olacaq. Danışıqlar nəticə vermədiyi və ənənəvi olaraq dalana dirəndiyi halda vəziyyət yenə gərginləşəcək. Hesab edirəm ki, bu, hamıya aydın olmalıdır", - politoloq qeyd edib.

Qeyd edək ki, bu həftə - sentyabrın 8-də həmsədrlər Moskvada bir araya gələcəklər. Nikbin əhvallı ekspertlər vasitəçilərin bu görüşünü əhəmiyyətli hesab edirlər. Məsələn, qarşıdakı görüşü və onun mümkün nəticəsini şərh edən başqa bir azərbaycanlı politoloq Qabil Hüseynə görə, həmsədrlər danışıqlar prosesini yenidən irəliyə aparmaq və konsensusa gəlmək istəyirlər.

Sabiq dövlət müşaviri erməni tərəfinin hazırda hər vasitə ilə prosesi pozmağa çalışdığına diqqət yönəldərək deyir: "Həmsədrlər danışıqlar prosesini yenidən irəliyə aparmaq və konsensusa gəlmək istəyirlər. Ancaq erməni tərəfi Qarabağla bağlı məsələləri sabotaj edir. Rusiyanın Azərbaycana müəyyən söz verməsinə baxmayaraq, Moskvanın reaksiyası çox zəifdir. Ona görə də danışıqlar prosesində irəliləyiş yoxdur. Dağlıq Qarabağın işğaldan azad olunması üçün bütün dünya bu işə əl qoymalı, kömək etməlidir. Həmsədrlər artıq görüşüblər və bu yaxınlarda xarici işlər nazirlərinin görüşü gözlənilir. Xarici işlər nazirləri isə prezidentlərin görüşünü hazırlamalıdır. Rusiyadan belə səslər eşidilir ki, guya prezidentlərin növbəti görüşündə hansısa irəliləyişlər ola bilər. Düzdür, belə şeyləri çox eşitmişik, ancaq ehtiyatla deyirəm ki, bu payızda məsələnin həllində irəliləyişlər ola bilər. Çünki qarşıda xarici işlər nazirləri və prezidentlər səviyyəsində görüşlər intensivləşəcək".

*****

Əlbəttə ki, "İstənilən pis sülh müharibən yaxşıdır", deyirlər. Lakin əgər "pis sülh" daima, məqsədli şəkildə ədalətli sülhü əngəlləmək üçün kiminsə əlində vasitəyə çevrilirsə, artıq o, müharibənin özündən də təhlükəli amilə çevrilmiş olur. Azərbaycana pis sülh yox, ədalətli sülh, ədalətli nizamlama lazımdır. Bu, onun beynəlxalq hüquqla təsbit edilən halal haqqıdır. Bu xalq qədərindən də artıq gözləyib və onun gözləmə limiti bitib - hansı ki, baş diplomatımız bir daha Avropadan bəyan elədi. Azərbaycan xalqı adından.

Kim müharibə istəyirsə, onu da alacaq. Zira, sülhün alternativi hərbdir.

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 196 (6517) 5 sentyabr 2016

**Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Avropa İttifaqına üzv dövlətlər və Şərq Tərəfdaşlığı ölkələrinin iştirakı ilə keçirilən qeyri-rəsmi görüşdə çıxış edib. XİN mətbuat xidməti həmin çıxışın mətnini musavat.com-a göndərib. Onu təqdim edirik:**



# "Regionda uzunsürən münaqişələr Avropa İttifaqı ilə əməkdaşlığa mane olur"

## **Elmar Məmmədyarov:** "Aİ-Azərbaycan ikitərəfli əməkdaşlığını təşviq edəcək hüquqi bazanın təkmilləşdirilməsi üçün fəal dialoqa hazırıq"

****

Bratislava, 3 sentyabr 2016-cı il

Hörmətli nazir Lajcak,

Xanım Mogerini,

Hörmətli həmkarlar,

Xanımlar və cənablar,

Mən Şərq Tərəfdaşlığı çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığın vəziyyəti və perspektivlərini bir daha əks etdirəcək bu tədbirə ev sahibliyi etdiyi üçün Slovakiyanın Aİ-dəki sədrliyinə təşəkkür etmək istərdim.

Hörmətli həmkarlar,

Biz bu il Aİ-Azərbaycan əlaqələrinin tarixində iki önəmli mərhələni qeyd edirik: 1996-cı ildə Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin imzalanmasının iyirmi illiyini və 2006-cı ildə enerji sahəsində strateji tərəfdaşlıq üzrə Anlaşma Memorandumunun imzalanmasının on illiyini. Ötən 20 ildən artıq dövrdə Aİ-Azərbaycan əməkdaşlığı əhəmiyyətli dərəcədə inkişaf etmiş və tədricən ortaq maraq doğuran bir çox sahələrdə genişmiqyaslı tərəfdaşlığa çevrilmişdir. Hər iki sənəd bu prosesə çox böyük töhfə vermişdir.

Biz bir çox müxtəlif sahələrdə aşkar ortaq maraqlara sahibik və əməkdaşlığımız üçün hələ çox imkanlar mövcuddur. Riqa Sammiti çərçivəsində tərəfimizdən Strateji Tərəfdaşlıq Sazişi layihəsinin təqdim edilməsi ikitərəfli əlaqələrə verdiyimiz önəmi bir daha təsdiq edən aydın siqnal oldu. Aİ və ona üzv dövlətlərlə bərabərhüquqlu tərəfdaşlıq və qarşılıqlı fayda prinsiplərinə əsaslanan uzunmüddətli münasibətlərin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin vacib məqamlarından biridir.

Biz Strateji Tərəfdaşlıq Sazişinin Aİ-Azərbaycan əlaqələrinin hərtərəfli şəkildə genişləndirilməsi üçün möhkəm hüquqi əsas yaradacağına inanırıq və danışıqlar aparılması üçün mandatın Aİ Xarici Əlaqələr Şurası tərəfindən rəsmi qaydada təsdiq edilməsindən sonra rəsmi danışıqlar prosesinin başlanmasını gözləyirik . Biz bunun tezliklə baş verəcəyinə ümidvarıq. Mövcud reallıq və niyyətləri özündə əks etdirəcək və hələ uzun müddət Aİ-Azərbaycan ikitərəfli əməkdaşlığını təşviq edəcək hüquqi bazanın təkmilləşdirilməsi üçün fəal dialoqa hazırıq.

Xanım Mogerininin Bakıya səfəri zamanı aparılmış müzakirələr Aİ-Azərbaycan əlaqələrinə yeni bir dinamiklik gətirdi. Qarşıdakı aylar parlamentlərarası əlaqələr də daxil olmaqla, ikitərəfli siyasi gündəliyimizdə önəmli perspektivlər vəd edir və biz bu prosesdə səylərimizi əsirgəməyəcəyik. Parlament Əməkdaşlıq Komitəsinin üzvləri parlamentlərarası dialoqun canlandırılması məqsədilə bu ay Bakıya səfər edəcəkdir. Biz həmçinin Şərqi Avropa və Mərkəzi Asiya üzrə İşçi Qrupu missiyasının Bakıya qarşıdakı səfərinə Aİ üzv dövlətlərilə qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirə aparmaq üçün daha bir imkan kimi baxırıq.

Hörmətli həmkarlar,

Biz Aİ ilə əlaqələrimizi Şərq Tərəfdaşlığı çərçivəsində ikitərəfli əsasda qurduğumuzu vurğuladıq, lakin biz çoxtərəfli əməkdaşlığın potensial və əhəmiyyətini heç zaman istisna etməmişik. Biz həmişə bunun ortaq maraq doğuran sahələrdə konkret öhdəliklər əsasında praktiki tədbirlər vasitəsilə nəticələr verə biləcək mümkün və real layihələrin əməli həyata keçirilməsi yolu ilə reallaşdırılmasını dəstəkləmişik. Bu xüsusda Cənub Qaz Dəhlizinin vaxtında reallaşdırılması strateji əhəmiyyətə malikdir. Fikrimizcə nəqliyyat çoxtərəfli əsasda Şərq Tərəfdaşlığı çərçivəsində maraqlı tərəflər arasında qarşılıqlı faydalı əməkdaşlığı əhəmiyyətli dərəcədə inkişaf etdirəcək daha bir önəmli sahədir.

Lakin regionda uzunsürən münaqişələr çoxtərəfli əməkdaşlığa mane olur. Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı digər Şərq Tərəfdaşlığı ölkələrinin ərazi bütövlüyündən heç də az əhəmiyyət daşımır. Biz Aİ-nin bu yaxınlarda qəbul edilmiş Qlobal Strategiyasında bu əsas prinsiplərə açıq dəstəyini alqışlayırıq. Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən tezliklə çıxarılması Aİ-nin Cənubi Qafqazda və ondan kənarda regional əməkdaşlığın möhkəmləndirilməsi məqsədlərinə xidmət edəcəkdir.

# ABŞ Tehranın himayəçisinə çevrilir?

**Türkiyə tanklarının İŞİD və kürd silahlı birləşmələrinin nəzarətində olan Suriya ərazilərinə daxil olmasından sonra keçən günlərdə Rusiya aktivlik nümayiş etdirsə də, İranın sanki proseslərdən bir qədər kənarda dayanması, seyrçi qalması müşahidə olunur. Bölgənin nəhəng dövlətlərindən olan İranın yaxınlığında gedən proseslərdən narahatlıq keçirmədiyi, nəyəsə arxayın olduğu təssüratı yaranır.**

Siyasi ekspertlər isə İranın kənara çəkilmiş kimi görünməsinin aldadıcı olduğunu düşünürlər.

Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər hesab edir ki, İranla çoxtərəfli gizli danışıqlar gedir. Tərəflər çoxdur və hər tərəf də öz maraqlarını irəli aparmaq üçün müxtəlif açıq və gizli siyasi diplomatik, operativ əlaqələr qurublar, öz maraqlarını təmin etməyə çalışırlar: "Amma mən İranın heç də passiv dayandığını, arxa planda olduğunu düşünmürəm. Rusiya ön planda olduğu üçün İran arxa planda görünür. Amma Rusiyanın ön plana çıxması da İranın təşəbbüsüdür. Həm İranın, həm Bəşər Əsəd rejiminin maraqlarını üst səviyyədə indi Rusiya təmsil edir. Ona görə də İran özü bilərəkdən bir qədər arxa planda görünür. Bu, Tehranın öz istəyidir. Mən burada İranın maraqlarının qorunduğu düşüncəsindəyəm. İran indiyə qədər Suriya məsələsində xeyli enerji sərf edib, çoxlu itki verib. Suriya münaqişəsi İrana çox baha başa gəlir. Ona görə də İranın kənara çəkildiyini və çəkiləcəyini düşünmürəm. Əksinə, İran çox aktivdir. Xüsusən də Rusiya ilə, Əsəd rejimi ilə, Türkiyə ilə çox sıx işləyir. ABŞ və bəzi Avropa Birliyi ölkələri ilə də İranın müəyyən əlaqələri var. Açıq əlaqələri də, eyni zamanda gizli əlaqələri də mövcuddur".

İranın əlavə hərbi hissələr yaratması barədə deyilənlərə gəldikdə, S.Əkbər qeyd etdi ki, İranın xaricdə əməliyyatlar həyata keçirən "Qüds briqadası" deyilən hərbi birləşmələri var. Ona görə də yeni bir ordunun yaradılmasına əslində ehtiyac yoxdur. Sadəcə olaraq, Qüds briqadası çoxlu itkilər verib. Onların yerinin doldurulmasından, əlavə qüvvələrin cəlb olunmasından söhbət gedə bilər".



**Sülhəddin Əkbər:** "İranın ABŞ-la açıq və gizli əlaqələri var"



**Xaləddin İbrahimli:** "İranın mövqelərini gücləndirən ABŞ-dır"

Politoloq Xaləddin İbrahimli isə bizimyol.info-ya müsahibəsində deyib ki, Türkiyənin indi olduğu mövqedən, yəni Cərablusdan cənuba və şərqə irəliləməsi çox vacib və alternativsizdir. Onun qarşısında manеələr çoxdur. İndi Rusiya xaric bütün güclər Türkiyəyə qarşıdır. ABŞ-a ən çox dəstək verən isə İrandır. Arada görüşlərin, danışıqların olmaması heç kəsi aldatmamalıdır: "İran "Birləşmiş Şiə Azadlıq Ordusu" yaradır. Maraqlı olan odur ki, buraya bütün şiələrin cəlb olunması düşünülür. İran İnqilabı Keşikçilərinin tanınmış isimlərindən olan Məhəmməd Əli Fələki bir açıqlamasında bildirdi ki, sözügedən ordu 3 mərkəzə - Yəmən, İraq və Suriyaya istiqamətlənəcək. İndi Suriyada İran hərbçilərinin rəhbərliyi altında döyüşənlərin içərisində Pakistandan, Livandan və başqa müsəlman dövlətlərindən olan şiə silahlıları var. İran öncə özünü islam aləminin xilaskarı, İslam dininin müdafiəçisi kimi təqdim edirdi. Gördü ki, bu şüarla islam aləmini qarışdırır. "Ərəb baharından" sonra Orta Doğuda şərait dəyişdi və aləm xaos girdabına sürükləndi. Buna görə Tehranın siyasəti dəyişdi və dünya şiələrinin hamisi kimi görünmək taktikası seçdi. Əslində şiələrin müdafiəsi adı altında İran İraqda, Suriyada və Yəməndəki maraqlarını gerçəkləşdirmək istəyir. Çalışır ki, bu dövlətlərdə şiə rejimləri iqtidara gəlsin və İranın bölgədə nüfuzu güclənsin, xaricdən gələn təhlükələr azalsın. Çünki İranın ən böyük qorxusu içəridəki 30 milyonluq türk topludur. Onlar ayrılsa, farslar gücünü itirib, təxminən Özbəkistan səviyyəsində bir dövlətə çevriləcək. Şiə ordusu yaratmaq, "sünni ordusu da yaradılsın" deməkdir. Bu Orta Doğuda Türkiyəyə qarşı çevrilən bir niyyətdir. Bu mənada İran ABŞ-la birgə hərəkət edir, başqa sözlə onun planlarının gerçəkləşməsinə açıq-aşkar yardım edir. İranın mövqelərini gücləndirən ABŞ-dır. Onu Türkiyəyə və Səudiyyəyə qarşı bir oyunçu olaraq gücləndirir".

Politoloqun fikrincə, ABŞ İranın bölünməsini istəmir. Ən azı yaxın zamanlarda onun yenidən şəkillənməsi gündəmdə deyil: "ABŞ bilir ki, İran bölünsə, ortaya böyük bir Azərbaycan dövləti çıxacaq və Türkiyənin dünyada ağırlığı daha da artacaq, Orta Asiyaya təsiri artacaq. Turan ideyası bir növ reallıq müstəvisinə çıxacaq. ABŞ bunu yaxşı bilir və Avrasiyada yeni, həm də tarixən buranı hər kəsdən yaxşı tanıyan bir gücün səhnəyə çıxmasını istəmir. O, Türkiyəyə qarşı İrandan istifadə edir. İran ABŞ və İsrailə qarşı bəyanatlar verməkdən başqa nə iş görür? Aradabir "düşmənsən, asacam, kəsəcəm, Yer üzündən siləcəm" kimi populist və xalq kütlələrini aldatmağa hesablanan sözlər danışır. İrandan nə İsrailə, nə də ABŞ-a real təhlükə olmayıb, olmayacaq. İndiki durumda İran ABŞ-a da, İsrailə də lazımdır və mən bu dövlətlərin arasında gizli əlaqələrin, fəaliyyət koordinasiyasının olmasını da istisna etmirəm. Təbii ki, toqquşan maraqlar da var. Belə toqquşan maraqlar isə ən yaxın dövlətlər arasında da olur".

**Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 196 (6517) 5 sentyabr 2016

**Sentyabrın 1-də Türkiyənin Bakıdakı səfirliyində Zəfər bayramı münasibət ilə keçirilən bayram mərasimində ölkə ictimaiyyətinin nümayəndələri, hökumət rəsmiləri, media təmsilçiləri iştirak etsələr də, Azərbaycan müxalifətindən heç kimin orada olmaması diqqətlərdən yayınmayıb. Qardaş ölkənin səfirliyi buna qədər əlamətdar günlərdə Azərbaycan müxalifətinin liderlərinə də dəvət göndərirdi və həmin şəxslər mərasimlərdə iştirak edirdilər.**

# Türkiyə iqtidarı Azərbaycan müxalifətini siyahıdan silib?

## Səfirliyin bayram mərasiminə heç bir müxalifət liderinin dəvət edilməməsinə reaksiyalar gəldi

Bu dəfə isə bəlli olub ki, heç bir müxalifət partiyasına dəvət göndərilməyib.

Bəs, bu hadisə Türkiyə iqtidarının Azərbaycan müxalifəti ilə münasibətləri kəsməsi sayıla bilərmi? Müxalifət partiyalarının rəhbərləri dəvət edilməməklərini necə qiymətləndirirlər?

AXP sədri Pənah Hüseyn bildirdi ki, bayram tədbirinin sahibinin öz işidir kimi dəvə etmək və etməmək: "Ona görə də mən bu məsələyə xüsusi münasibət bildirmək istəmirəm".

KXCP sədri Mirmahmud Mirəlioğlu bildirdi ki, artıq bir neçə ildir Türkiyə səfirliyi KXCP-ni bu kimi tədbirlərə dəvət etmir. Ona görə də Zəfər bayramına dəvət edilməməkdən də təəccüblənməyib: "Türkiyənin bu tədbirə qədərki, sonuncu böyük elçisi burada fəaliyyətə başlayandan sonra şəxsən bizə heç bir bayram mərasimlərinə dəvət gəlməyib. Hətta Türkiyədə baş verənlərlə bağlı bizim açıqlamalarımıza belə etinasız yanaşılıb. Türkiyə ilə bağlı bizdən başqa heç kimin etmədiyi tədbirlər haqqında məlumat vermişik, buna da etinasız yanaşılıb. Ona görə də mənim maraq dairəmdə deyil ki, Zəfər bayramına kimi dəvət edib, kimi dəvət etməyib. Kimi dəvət etmələri onların öz daxili işləridir".

AzDP sədri Sülhəddin Əkbər isə bildirdi ki, bu hadisənin səbəbləri var: "Azərbaycan və Türkiyə hökumətləri arasında müəyyən danışıqlar gedir. Azərbaycanın daxili işlər naziri ötən həftə Türkiyədə səfərdə oldu. Digər tərəfdən Türkiyə hökuməti Azərbaycandakı səfirini dəyişib. Azərbaycan hakimiyyəti müxalifət qüvvələrinə qarşı son vaxtlar yeni həbslər həyata keçirir. Dəqiqləşdirməyə ehtiyac var ki, müxalifətin dəvət edilməməsi yeni gələsi səfirin davranışıdırmı, o Ankaradan belə təlimat alıbmı, yoxsa Azərbaycan hakimiyyətinin Türkiyə hakimiyyəti ilə apardığı danışıqların nəticəsidir. Yeni Azərbaycan hakimiyyətinin fürsətdən istifadə edib Azərbaycan müxalifəti ilə Türkiyə hakimiyyəti arasında əlaqələri kəsmək cəhdidir? Bunu dəqiqləşdirmək lazımdır. Bu, müvəqqəti tətbiq olunmuş təlimat da ola bilər. Türkiyədə fövqəladə hal hökm sürür. Ola bilsin ki, buna uyğun davranış sərgilənib"



Ümid Partiyasının sədri İqbal Ağazadə bildirdi ki, Azərbaycan müxalifətinin içində də Gülən hərəkatı ilə əlaqəli qrupun olduğu iddia edilir. Belə bir vəziyyətdə Türkiyə səfirliyi dilemma qarşısında qalıb müxalifəti parçalamaq istəməyib. Ona görə də heç kimə dəvət göndərməməyin məqbul yol olduğunu düşünüblər: "Biz bu addımdan inciməmişik. MHP başqanı Dövlət Baxçalının baş nazirin müavini olduğu dövr xaric, Türkiyə iqtidarı Azərbaycan müxalifəti ilə əlaqə saxlamayıb, əməkdaşlıq etməyib. Türkiyə iqtidarı üçün öncə Azərbaycan maraqlıdır. Azərbaycan maraqları baxımından isə təəssüf ki, onlar yalnız iqtidarla əməkdaşlığı düzgün taktika sayır. Bu taktika indi də davam edir. Hesab edirəm ki, doğru taktika deyil. İqtidarla yanaşı müxalifətlə də əməkdaşlıq etmək daha uğurlu taktika ola bilər".

VİP sədri Əli Əliyev bildirdi ki, Türkiyənin Azərbaycan nümayəndəliyi ölkədaxili siyasi proseslərə ehtiyatla yanaşır. Bundan əvvəlki səfir də müxalifətdən məsafələnməyi çox vacib davranış tövrü kimi nümayiş etdirirdi. Lakin görüntü xatirinə də olsa, müəyyən siyasi təşkilatları rəsmi protokollarda saxlayırdı: "Yeni səfir Azərbaycana Türkiyədəki çevriliş cəhdindən sonra təyinat alıb. FETÖ-çülərə qarşı Azərbaycan hökumətinin də hərəkətlərinin şahidi olduq. Təbii ki, bunun qarşılığında AKP hökuməti də rəsmi Bakının "sarı simi"nə həssas yanaşmalıdır, yanaşır da. Hakimiyyətimizin fobiyası müxalifətdəndir. Bu zərif nöqtəni də Bakıya gələn səfirlər də, diplomatlar da, rəsmilər də uzun illərdir gözləyirlər. Qəbulda müxalifətin görünməməsi də belə qarşılıqlı davranışların təzahürüdür. Məhəlli baxımdan Türkiyənin davranışı düz olsa da, strateji mənada yanlışdır. Türkiyəyə güclü Azərbaycan lazımdır. Siyasi müxalifətsiz və güclü siyasi sistemsiz güclü Azərbaycan ola bilməz. Bunu Ərdoğan bilməmiş deyil. İnanıram ki, vaxtı yetişdikdə bu ziyanlı davranış dəyişəcək. Ona görə Türkiyə səfirliyinin protokoluna və münasibətinə müvəqqəti yanaşılmalıdır".

Qeyd edək ki, sonuncu Zəfər bayramına qəzetimizdən iki təmsilçi dəvət edilmişdi. Onlar müxbirimizə deyiblər ki, Bakıdakı bayram tədbiri gecikməli olub: "Bakıda tərtiblənən bayram töreni vaxtından iki gün sonra baş tutub. Bu da Türkiyədəki hadisələrlə bağlıdır. Eyni zamanda, Azərbaycana yeni təyin olunan səfir hələ Bakıya gəlməyib. İndiki səfir də həmin günlərdə Bakıda yox idi. Görünür, bu cür qeyri-müəyyənlik dəvət siyahılarına da təsir edib. Bakıdakı Türkiyə səfirliyi bizim doğma evimizdi. Orada Azərbaycandan kimlərin dəvət olunub-olunmamasının önəmi azdır. Əsas olan Türkiyənin mövcud durumdan az itki ilə çıxması, daha da güclənməsi və problemlərdən arınmasıdır. Biz Türkiyəyə müxalifət-iqtidar düşərgəsindən baxmamalıyıq. Biz Türkiyəni şərtsiz, iqtidarların və səfirliklərin keçici münasibətlərindən asılı olmadan sevməliyik və sevirik".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# ABŞ-ın Azərbaycandakı keçmiş səfiri içki və qadın düşkünü olub?

**Jurnalist Sənan Nəcəfov:** "Riçard Kozlariç o qədər içirdi ki, onu köməkçiləri sürüyərək aparırdılar"
**Mehman Əliyev:** "Məqsəd Kozlariçi gözdən salmaqdır"
**Novella Cəfəroğlu:** "İnsanı bu şəkildə təhqir etmək düzgün deyil"

**Jurnalist Sənan Nəcəfov bir neçə gün öncə öz facebook səhifəsində ABŞ-ın 1994-97-ci illərdə Azərbaycanda səfiri olmuş Riçard Kozlariç barədə ittiham dolu status paylaşıb. Yazıda səfirin içki düşkünü, qadın aludəçisi olması, eləcə də, onun qanunla qadağan olunmuş təriqət və sektalara "əl tutmaqda" ittiham edilməsi ciddi müzakirə mövzusuna səbəb olub.**



Riçard Kozlariç

S.Nəcəfovun statusunda bu sözlər yer alır: "Bu diplomatın fəaliyyəti hələ bir çoxlarının yaddaşından silinməyib. Bu adam rəsmi qəbullarda o qədər içirdi ki, köməkçiləri onu güclə sürüyüb maşına uzadırdı. Kozlariçin digər zəif nöqtəsi isə yüngül əxlaqlı qadınlar idi, ətək görən kimi ağlı başından çıxırdı. Bu diplomat Avropanın bir çox ölkələrində qanunla qadağan olunmuş dini təriqət və sektalara Azərbaycanda yaşıl işıq yandırmaq üçün ciddi cəhd göstərirdi.

Səfir Kozlariçin qadağan olunmuş təriqət və sektalara "əl tutmaqda" hansı məqsədlər güddüyü hələ də məlum deyil. O ya çox "dindar" adam idi, ya da şəxsi problemləri bu diplomatın şüurunu pozmuşdu.

Silviyo Matti Azərbaycana niyə gəlmişdi?

Yeri gəlmişkən, səfir Kozlariçin maraqlarını qoruduğu sektalardan birinə Silviyo Matti adlı şəxs rəhbərlik edirdi. Finlandiya vətəndaşı olan Matti hələ 80-ci illərin əvvəllərində sovet ittifaqından casusluqda ittiham edilərək qovulmuşdu. 90-cı illərin ortalarında isə Matti ABŞ-ın Azərbaycandakı səfiri Riçard Kozlariçin himayədarlığı ilə sekta rəhbəri kimi Bakıda peyda oldu. MKİ-dən əldə olunmuş məxfi məlumatlara görə, bu adamın vasitəsi ilə xüsusi xidmət orqanları Azərbaycanda xəfiyyə ovuna çıxıbmış...".

Azərbaycanda səfir işləmiş dönəmlərdə Kozlariçi tanıyan şəxslərdən ittihamlara mövqe öyrəndik.

"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev "Yeni Müsavat"a ittihamların əsassız olduğunu söylәyib: "Şəxsən mən deyilənlərin şahidi olmamışam. Bu söhbət niyə indi ortalığa çıxır? O zamanlar mətbuat kifayət qədər azad idi. Əgər belə hallar olsaydı, çoxsaylı məlumatlar dərc olunardı. Amma belə məlumatlar heç bir mətbuatda getməyib. Bir məsələni də qeyd edim ki, Kozlariç deyilənlər kimi şəxs olsaydı, Rusiya, İran və digər dövlətlər bunu gündəmə çıxarardılar. Belə şeyləri gizlətmək mümkün deyil. O zamanlar Kozlariç barədə mətbuatda heç bir mənfi xəbərin şahidi olmamışam. Əgər varsa, çıxarıb ortaya qoysunlar. O zamanın mətbuatı indiki deyil. Kimsə mətbuatı idarə edə bilmirdi. 20 ildən sonra nəsə danışmaq olar, amma bunlar etik deyil. Əgər o vaxtı yazmayıblarsa, indi nə adla belə ittihamlar irəli sürmək olar? Məqsəd Kozlariçi gözdən salmaqdır. Çünki Azərbaycan hökumətini ən çox sərt şəkildə tənqid edən keçmiş səfirlərdən biridir".

Hüquq müdafiəçisi Novella Cəfəroğlu da keçmiş səfirlə bağlı ittihamların doğru olmadığını bildirib: "Onunla səfirlikdə görüşlərimiz olub. Çox normal insandır. Kozlariçdə deyilənlərin heç birini görməmişəm. Bunun üçün də onun haqqında nəsə deyə bilmərəm. İnsanı tənqid etmək olar, bunu qəbul edirəm. Amma təhqirləri qəbul etmək mümkün deyil. Kozlariç normal səfir idi, yaxşı da işləyirdi. Onun əxlaqsızlığını kimsə görə bilməzdi. Azərbaycanı orada tənqid edirsə, bu onun şəxsi fikirləridir. Bundan ötrü insanı bu şəkildə təhqir etmək düzgün deyil".

❑ **Cavanşir ABBASLI**

# AXCP Müsavatla danışıqlardan imtina etdi

**İkram İsrafil:** "İnanıram ki, ictimai rəy də AXCP-nin bu mövqeyini qəbul etmir"

**Müsavat Partiyası sentyabr ayında mitinq keçirmək barədə qərarını elan etdikdən bir gün sonra Milli Şura sentyabrın 11-nə mitinq təyin etdi. Müsavat Partiyasının rəhbərliyi mitinqlərin birgə keçirilməsinin daha məqsədəuyğun olduğunu bəyan etsə də qarşı tərəfdən müsbət reaksiya olmadı. Bəlli oldu ki, Milli Şurada söz sahibi olan AXCP birgə mitinq keçirmək üçün hətta müzakirələr belə, aparmaqdan imtina edib.**



İkram İsrafil

Müsavat Partiyası başqanının müavini Yadigar Sadıqov açıq şəkildə bəyan etdi ki, mitinqlərin birgə təşkili üçün Azərbaycan Xalq Cəbhəsi Partiyası ilə Müsavat Partiyası arasında müzakirələr aparılmayıb. Çünki qarşı tərəf müzakirələrdən imtina edib. "Report"a açıqlamasında Y.Sadıqov deyib ki, Müsavat Partiyasının keçirəcəyi mitinqin tarixinin müəyyənləşməməsinin səbəbi bəzi siyasi təşkilatlarla müzakirələrin aparılmamasıdır. Bura Nida Vətəndaş Hərəkatı, "D18" Hərəkatı və Real Hərəkatı daxildir. Müzakirələrdən və məsləhətləşmələrdən sonra mitinqin keçiriləcəyi tarix açıqlanacaq: "Hazırda ümumi fikir ondan ibarətdir ki, mitinq sentyabrın 18-də keçirilsin. Amma bu barədə qərar verilməyib".

Böyük ehtimalla Müsavat Partiyasının bu gün keçiriləcək iclasında mitinqin günü və yeri təyin ediləcək.

AXCP-nin birgə mitinqlər keçirmək barədə hətta müzakirələr aparmaqdan imtina etməsinə Müsavat Partiyası Divanının üzvü İkram İsrafilin mövqeyini öyrəndik. İkram İsrafil bildirdi ki, Müsavat Partiyası hər zaman dövlətimizin və millətimizin maraqlarını öndə tutan, buna görə fəaliyyət göstərən partiya olub, indi də belədir: "Ona görə də biz hər zaman belə məsələlərdə digər siyasi və ictimai təşkilatlarla əməkdaşlıq etməyin tərəfdarı olmuşuq. Bu referendum məsələsinin də ciddiliyini nəzərə alıb öncədən AXCP və digər qurumlara əməkdaşlıq təklif etmişik, lakin təkcə AXCP-dən müsbət cavab almamışıq. AXCP-nin bu yanaşmasını doğru hesab etmirəm. İnanıram ki, ictimai rəy də AXCP-nin bu mövqeyini qəbul etmir".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 196 (6517) 5 sentyabr 2016

**Dünyada müasir texnologiya ötən hər ay inkişaf edir, yeniliklər insan həyatına girir. Bir zamanlar bizə əlçatmaz görünənləri indi məişətimizdə hər gün istifadə edirik. Məsələn, elə götürək smart (ağıllı) mobil telefonlarımı. 20-30 il öncə bizə kimsə ovcumuzun içinə sığan bir telefonun olacağını desəydi inanmazdıq.**

# Texnologiyanın inkişafı xəyalları gerçək edir...

## İstədiyiniz hər hansı bir dili beyninizə yükləyərək danışa biləcəksiniz



İndi isə ovcumuzun içindəki təkcə telefon funksiyasını daşımır, həm televizor, həm video, həm yol göstərən, həm xəritə və sairə funksiyalarını göstərir. Bir vaxtlar fantastik filmlərdə seyr etdiyimiz səhnələr artıq reallığa çevrilir, robotlar, özü idarəolunan avtomobillər sanki insan zəkası ilə yarışa çıxır. Artıq öz sahibini tanıyan ağıllı çamadanlar da hazırlanıb və yaxın zamanlarda ictimaiyyətə təqdim ediləcəyi gözlənilir.

Belə ki, NUA Robotics şirkəti CES 2016 - Beynəlxalq elektronika sərgisində sahibini tanıya və onun izi ilə gedə bilən ağıllı çamadanın prototipini təqdim edib. Çamadan sahibini tanıması və onun mobil qadjetlərinə qoşulması üçün kamera və bluetooth modulla təchiz edilib. Çamadan hələ ki, təcrübədən keçirilir. Sınaqlar müvəffəqiyyətlə başa çatdırılarsa, qadjet cari ildə satışa çıxarılacaq. Çamadanda istifadə edilən texnologiya supermarket arabalarında da tətbiq edilə bilər. Bunun sayəsində fiziki imkanları məhdud şəxslər və yaşlı insanlar daha asan alış-veriş edə biləcək.

Texnologiyanın bu cür sürətli inkişafı qarşıdakı on ildə bizi daha da heyrətləndirəcəyini deməyə əsas verir. Hətta bu inkişaf bəzən insanı qorxudur. Bir sıra mütəxəssislər gələcəkdə maşınların, təyyarələrin funksiyasının da dəyişəcəyini iddia edirlər. Hətta bu istiqamətdə müəyyən işlər də gedir. Məsələn, Serbiyada gələcəyin maşını hazırlanıb. Ujice şəhərində yaşayan sənaye mühəndisi 29 yaşlı Petar Vukoviç ABŞ-da keçirilən gələcəyin maşını müsabiqəsinin qalibi olub. Vukoviç Ujicedə mühəndis kimi çalışır. O, hazırladığı modelə "Rutsio" adını verib.

Gələcəyin maşınının təkərləri üfüqü və şaquli istiqamətdə hərəkət edir. Bu maşın həm də ölçüsünə və texniki göstəricilərinə görə fərqlənir. "Rutsio" Detroitdə keçirilən ən böyük avtomobil sərgisində nümayiş ediləcək. Sərgi 13-26 noyabrda baş tutacaq. İndi Vukoviçin maşınının istehsal hüquqlarını kimə verəcəyi maraqla gözlənilir. Serb mühəndis ixtirası sayəsində həm yeni iş yerlərinin açılacağına, həm də əhalinin vaxta qənaət edəcəyinə ümid etdiyini deyib.

Xatırlayırsınızsa, bir neçə il öncə uçan maşınlar da ictimaiyyətə təqdim edilmişdi. ABŞ-ın "Terrafugia" şirkəti "Transition" adlı uçan avtomobili sınaqdan keçirib. Adi yollarda avtomobil kimi hərəkət edən bu "uçan maşın" ehtiyac yarananda səmaya qalxır. Yerdə adi mühərriklə hərəkət edən bu maşın səmada 100 at gücündə mühərriklə işləyir. Maşının təyyarəyə çevrilməsi, qanadlarını açıb havaya qalxması 30 saniyə çəkir. Səmada saatda 185 kilometr sürətlə 724 km məsafə qət etməyə qadir olan "Transition"un benzin tutumu yerdə cəmi 105 km hərəkət etməyə çatır. Uçan maşınların paraşütü də var. Hələ ki, səmada uçan maşınlara rast gəlinməsə də texnologiyanın sürətli inkişafı yaxın illər ərzində bizim yerdə görməyə öyrəşdiyimiz maşınları səmada da görəcəyimizə ümid yaradır. Yəqin ki, çoxlarımız yorğun olanda ürəyimizdən "kaş ki, bir ağıllı robotum olsaydı, mənim yerimə bütün işləri görsəydi" deyə bir istək keçib. Düzdür, alimlər insana bənzəyən robotları artıq ixtira ediblər. Microsoft Application and Services Group-dan olan mütəxəssislər emosiyaları hiss edərək insanla söhbət etməyi bacaran süni proqram yaradıblar. Xiaoice adlı süni zəka suallara 17 yaşlı qız kimi cavab verir. Əgər o söhbət əsnasında mövzu haqqında nəsə bilmirsə o uydura bilir. Əgər ona yalan danışılırsa o hirslənir. Xiaoice-nin gözlənilməzlik xüsusiyyəti onunla söhbəti adi insanla söhbətə çevirir. Hal-hazırda Xiaoice-nin yaradıcıları onun təkmilləşdirilməsi üzərində çalışırlar. Bundan başqa təsəvvür edin ki, istədiyiniz hər hansı bir dili beyninizə yükləyərək onu artıq biləcəksiniz. Bu fantastika kimi görünsə də, yaxın gələcəkdə artıq reallığa çevrilə bilər. Google-ın texniki direktoru, futuroloq və ixtiraçı Ray Kurzweil qeyd edib ki, artıq 2030-cu ildə insan beyninə yeridiləcək nanobotların sayəsində insanlar daha çox yararlı olacaqlar. Beyində olacaq kiçik robotların köməyi ilə biz istənilən məlumatı əldə edib onu saniyələr içərisində yaddaşımıza yaza biləcəyik. Bundan əlavə olaraq biz öz fikir və xatirələrimizi arxivdə saxlaya və elektron məktub, video, foto kimi faylları göndərə biləcəyik. Google-da süni zəkanın hazırlanmasında iştirak edən Kurzweil-in fikrincə beyinə yeridiləcək nanobotlarla insanlar daha unikal olacaqlar. Nanobotlar hətta yaddaş gücləndirməsi, epilepsiya kimi xəstəliklərin aradan qaldırılmasına və zəkanın gücləndirilməsinə də nail ola biləcəklər. Təbii ki, potensial təhlükəsiz də olmur. Belə ki, biz hələ beynin tam olaraq necə işlədiyini bilmirik. Buna görə də beyinə nanobotların implantasiyası hələki şübhəli görünür. Bundan əlavə olaraq süni zəka beyni ələ keçirdərək insanı zombi halına sala bilər.

Alimlərin fikrincə gələcəkdə bir əşyanı atomlara parçalayıb həmin atomlardan digər bir əşya yaradan qurğu kəşf olunacaq. Onlar bu qurğunu nano assembler adlandırırlar. Təsəvvür edin ki, həmin qurğuya bir daş parçası qoyub onu atomlara parçalayırsınız. Daha sonra qurğu həmin parçalanmış atomlardan alma yaradır. Məsələ ondadır ki, alma və daş parçası digər materiallardan atom səviyyəsində bir-birindən fərqlənmirlər. Onların hamısı protonlardan, neytronlardan və elektronlardan ibarətdirlər. Əgər bütün bu hissəcikləri birləşdirməyi bacaran qurğu yaradılsa, onda istənilən hər şey istehsal oluna bilər.

❑ **Günel MANAFLI**

# Döyür, çünki sevir...



**Sevinc TELMANQIZI**
s.qurbanova@gmail.com

**Yəqin xəbəriniz olub, oxumusuz. Gözəlliyin hər yerdə olduğunu sübut etmək üçün dünyanı gəzib "Gözəllik atlası" foto-layihəsini həyata keçirən rumıniyalı fotoqraf Mihaela Noroc bir neçə həftə əvvəl Azərbaycanda da olub. Azərbaycanlı gənc qızın fotosunu paylaşan fotoqraf paytaxt Bakını gəzərkən xeyli sayda gözəl qadınla söhbətləşdiyini bildirib: "Bir neçə həftə əvvəl Azərbaycanın paytaxtı Bakıda idim. Bu zaman xeyli gözəl qadınla söhbətləşmək imkanım oldu. Qadınlar gözəl olsa da, çoxu həyat yoldaşından icazə almadığı üçün şəkil çəkdirə bilməyəcəyini dedi. Burada kişilərin sözü keçdiyi üçün, qadınlar həyat yoldaşlarından qorxurlar. Hazırda ölkədə qadınlar gender bərabərliyi üçün mübarizə aparır və qalib gələcəklərinə də əminəm".**

Oxumayanlar indi oxuyub deyəcəklər ki, burda nə var? Normaldır, ailəlidirsə, yoldaşından icazə alması təbiidir, sonucda dünyada nümayiş olunacaq bir sərgidir, falan-filan və sair. Mənsə fotoların sadəcə üzdən çəkilən fotolar olduğunu xatırladıb, hər kəs öz fikrində qalsın... deyib, tamam başqa bir mətləbi yada salmaq istəyirəm.

O mətləbi ki, neçə gündür iki əl, bir baş oturub düşünürük: son aylar bu qadın qətlləri, qadına qarşı zorakılığın sürətlə artmasının səbəbi nədir? Üzümüzü psixoloqlara tuturuq: səbəb cəmiyyətdəki total gərginlikdi deyirlər. Sosioloqlar şiddətli bahalıq deyə izahat verirlər. Hər zaman hər şeyi maddi problemlərin üstünə atmaq ən asanıdır, məlum. Əslində isə bu gün əcnəbi fotoqrafa gülümsünüb poza verə bilməyən qadın sabahın gözü göyərmiş, alnı şişmiş, burnu qanamış qadınıdır. Heç bir fərqi yox və ya hər şey mərhələ ilə - öncə mənəvi, sonra fiziki şiddət. Necə deyərlər, bir-bir, yavaş-yavaş, növbə ilə...Gözünü qorxutmadan.

Və siz elə bilirsiz, bu şiddətin bütün məğdurları bundan nəticə çıxara bilirlər? Gözünün göyü getməmiş ərinin qoluna girib başmaq seyrinə çıxan neçə qadın tanıyıram mən. "Dəmir" kimi arqumentlərlə həm də - döyür, çünki sevir. Ya da belə - "sevməsə döyməz ki", "Paylaşa bilmir də. Qısqancdı, xəstəlik kimidir", "Mənə güvənir e, ətrafdakılara güvənmir", "Mən də bir az üstünə getdim"... Maraqlı mənzərə alınır, xəstə olan qısqanc ərdir, xəstəxanaya düşən, xəstə hala gətirilənsə qadın... Döyülən neçə qadına anası "nolsun ki? Atan da məni vururdu cavanlığında" deyə "yol göstərib", təsəlli verib, bilirsizmi? Ər evindən birbaşa qəbir evinə girmənin vacibliyi barədə nə fəlsəfi traktatlar yazılıb ağbirçək ordusu tərəfindən, xəbəriniz varmı? Kişinin öz həyat yoldaşını döyməsi az qala evliliyin duzu-bibəri kimi təqdim olunub. "Olmazsa olmaz"ı, sevginin, diqqətin, paylaşamamanın sübutu kimi. Restorana, gəzməyə, filmə sevgilisi, əri olmadan gedən qadınların olduqları məkandan silsilə selfielər çəkdirib yollaması, konum atması... mənzərəsini hamımız, hər gün görmürükmü? Dediyim kimi, bundan mazoxistcəsinə həzz alan, sözünün çəkisi olmadığı halda, texnikanın gücünə sığınanlar nə qədər çox olacaqsa, biz bu kriminal xronikadakı qadına şiddətlə hələ çox qarşılaşacağıq.

Və məlumdu ki, o evdə böyüyən oğlan uşaqları üçün də bu model get-gedə adiləşir, ailənin normasına çevrilir. Uşaqlığında travmatik mənzərələrlə böyüyən uşaq gələcəkdə də bu travmanın birbaşa iştirakçısı olur. O da gözünün qabağına atasını gətirib vurur. Bu təhqirlərə baxmayaraq, evdən qaçıb getməyən anasını yadına salıb, təsəlli alıb, döyüb. Hər zaman da bəhanəsi olur: maddi problemlər var idi, döydüm... Çox deyinirdi, döydüm... Məndən xəbərsiz atası evinə getmişdi, vurdum...

Siz sonuncuya gülə bilərsiz. Amma xəbəriniz varmı ki, kənd yerlərindəki ən böyük davaların səbəbi çox vaxt bu düşük arqument olur? Bu yaxınlarda qardaşı ilə çimərliyə getdiyi üçün sevdiyi qadınla dalaşan, onun qardaşını bıçaqlayan kişinin hekayəsi yadınızdan çıxıb? Bax, belə bir absurd duruma çatmışıq.

Döyür, çünki sevir. Onun vurduğu yerdə gül açarmış... Gülləriniz qurusun...

YENİ MÜSAVAT
N 196 (6517) 5 sentyabr 2016









# İşgəncələrə Qarşı Komitədə möhür davası - qarşı tərəf

## Elşad Həmidov: "Elmira Behbudova Elçin müəllimin həyat yoldaşı olsa da, komitədə heç bir səlahiyyəti yoxdur"

**İşgəncələrə Qarşı Azərbaycan Komitəsinə sədrlik uğrunda mərhum Elçin Behbudovun həyat yoldaşı Elmira Behbudova ilə Elşad Həmidov arasında məhkəmə çəkişmələri davam edir. Sentyabrın 1-də "Yeni Müsavat"da E.Behbudovanın E.Həmidovun saxta möhür düzəltməsi və qanunsuz şəkildə özünü sədr elan etməsi ilə bağlı mövqeyi dərc edilmişdi. E.Behbudova bildirmişdi ki, E. Həmidov heç bir qanuni əsas olmadan özünü sədr elan edib və fəaliyyət göstərir.**

E.Həmidov redaksiyamıza gələrək ittihamlara cavab verib.

Elşad Həmidov deyib ki, 2006-cı ildən İşgəncələrə Qarşı Komitədə çalışır: "2006-cı ildə təşkilata dəvət olunmuşam və 2007-ci ildə isə komitənin vəsiqəsini almışam. Komitədə ekspert vəzifəsində işləmişəm. Elçin Behbudovla çiyin-çiyinə təşkilatda monitorinqlər keçirmişik. Komitənin əsas işlərində hər zaman başda olmuşam".

E.Həmidov komitədən xaric olunması ilə bağlı iddiaların yalan olduğunu vurğuladı: "Elmira Behbudova deyir ki, guya mən təşkilatdan xaric olunmuşam. Ancaq bu belə deyil. Yalnız xəstəliyimlə bağlı müvəqqəti olaraq təşkilatdan kənarda qaldım. Həmin zaman Elçin Behbudov dəfələrlə yanıma gəlib, mənimlə maraqlandı. Sağlamlığıma qovuşduqdan sonra Elçin Behbudov mənə yeni vəsiqə də verdi. Elmira Behbudova özünün müavin olduğunu deyir. Elmira Behbudova Elçin müəllimin həyat yoldaşı olsa da, komitədə heç bir səlahiyyəti yox idi. Onun İdarə Heyətində yalnız adı gedə bilər. Deyir ki, toplantılar keçirib, özünü sədr elan edib. Komitənin nizamnaməsində qohum, müavin söhbəti yoxdur. Ümumiyyətlə mən təşkilatda olduğum zaman Elçin müəllimin iştirakı ilə yalnız bir dəfə komitədə toplantı keçirilib. Monitorinqlərdə, təşkilati işlərdə Elçin Behbudovun yanında mən olmuşam. Heç bir fəaliyyəti olmayan şəxs necə özünü sədr elan edə bilər? Bildirir ki, İdarə Heyəti toplanıb, onu seçib. Nizamnaməyə əsasən İdarə Heyəti də dəyişir. Bir nəfər göstərin ki, indiyədək təşkilatla maraqlansın. Hərə bir tərəfdədir".

Özünün sədr seçilməsinə gəlincə, E.Həmidov vurğuladı ki, komitəsinin təsisçisinin və İdarə Heyətinin razılığı ilə sədr seçilib: "Sədr seçkisi nizamnaməyə görə İdarə Heyəti tərəfindən aparılır. Biz iclas keçirdik, təsisçiləri və İdarə Heyətini dəvət etdik. İşgəncələrə Qarşı Komitənin təsisçisi Pərviz Deystanidir. Həmin şəxs komitəni yaradanlardandır və əsas qurucusudur. Elçin Behbudovun da namizədliyini o irəli sürüb. Onun və İdarə Heyətinin razılığı əsasında sədr təyin edildim".

E.Həmidov E.Behbudovanı məhkəməyə verdiyini və 100 min manat təzminat tələb etdiyini dedi: "Komitənin sənədlərini toplayıb Ədliyyə Nazirliyinə göndərdik. Eyni adda iki təşkilat olduğundan nazirlik rədd cavabı verdi. Bu zaman iş 1saylı İqtisad Məhkəməsinə göndərildi. Məhkəmə də rədd cavabı verdikdən sonra Elmira Behbudova Apelyasiya Məhkəməsinə narazılığını bildirsə də, məhkəmə zamanı oraya gəlmədi. Mən Elmira Behbudovanı məhkəməyə vermişəm. Mənim haqqımda şayiələr uydurur. Deyir ki, hansısa müəssisələrə gedirəm, saxta sənədlə monitorinq keçirirəm. Axı bu mümkünsüzdür. Biz müəssisədə monitorinq keçiririksə həmin təşkilatlar yəqin ki, sənədlərimizi araşdırmalıdır. Əgər qanunsuz fəaliyyət göstəririksə, bizi qapalı müəssisəyə necə buraxırlar? Komitənin və mənim fəaliyyətimin qanuniliyini təsdiq edən bütün sənədlər var. Əsassız iddialarına görə ondan 100 min manat təzminat tələb etmişəm. Şimal və cənub bölgəsində monitorinqlər keçirmişəm. Şamaxıda, Ağsuda, Göyçayda polis bölmələrində, 1 saylı ruhi xəstəxanada olmuşam. Lazım olarsa, keçirdiyim 106 monitorinqin sənədlərini təqdim edə bilərəm. Bundan əlavə, gördüyümüz işlər barəsində mətbuatda və xəbər portallarında da məlumat dərc edilib".

❑ Məğrur MƏRD
Fotolar müəllifindir

# "AXA MBASK" vətəndaşın sığorta pulunu vermir

## Sığorta şirkəti məhkəmə qərarını da icra etmir

**"AXA MBASK" sığorta şirkəti ödəməli olduğu məbləği vətəndaşa verməkdən imtina edir. Şirkət sığorta məsuliyyətini həyata keçirmək əvəzinə vətəndaşa ən müxtəlif mülahizələr söyləyir, amma birbaşa vəzifəsini icra etməkdən boyun qaçırır. Buna görə də vətəndaş - Şirvan şəhəri, Fizuli küçəsi döngə 4, ev 54 A ünvanında yaşayan Mirsəfa Paşa oğlu Həmidov Maliyyə Bazarlarına Nəzarət Palatasının sədri Rüfət Aslanlıya müraciət ünvanlayıb. M.Həmidov yazır ki, "AXA MBASK" Sığorta Şirkəti ASC-nin özbaşınalığından, qanunlara saygısızlığından cana doyub:**




"AXA MBASK" SŞ ASC sığorta şirkətinin sahibi kimdirsə, kimə güvənirsə, kimə arxalanırsa leysan yağış nəticəsində dağılan evimin tikintisinə pul ödəmir. 2014-cü il 11 noyabr tarixində Şirvan şəhərinə yağan şiddətli leysan yağış yaşadığım evi dağıdaraq ciddi zədələdi. Evimi "AXA MBASK"da sığortalamışdım. Sığorta hadisəsi baş verdiyindən müvafiq sənədləri toplayıb şirkətə təqdim etmək üçün Şirvan İcra Hakimiyyətinə müraciət etdim. Başçının 1-ci müavini, şəhər fövqəladə hallar komissiyasının sədri Samid Abıyev komissiya üzvləri ilə yaşadığım evə baxış keçirdi və həqiqətən də evimin leysan yağışdan qəzalı vəziyyətə düşməsi barədə rəsmi arayış verdi. Sənədi sığorta şirkətinə təqdim etdim. Şirkət pulu ödəmədi. Mənə evimin qəzalı vəziyyətə düşməsindən dəyən ziyanı ödəməkdən yayınmaq üçün Şirvan İcra Hakimiyyətindən verilən arayışa saxta adı qoydular. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometroloji Departamentinə müraciət etdim. Departamentdən həmin gün şiddətli leysan yağış yağmasını təsdiq edən arayışı da "AXA MBASK"a təqdim etdim. Bu dəfə isə dedilər ki, sizə dəyən ziyanı ödəmirik".

Vətəndaş sığorta şirkətinin hərəkətlərinin qanunsuz hesab edilməsi və dəyən ziyanın ödənilməsi üçün Nəsimi Rayon Məhkəməsinə müraciət edib: "İddiam əsasında şikayətimə baxıldı. Məhkəmə aidiyyəti qurumlardan baş verən təbii fəlakət barəsində sorğular verib cavablar aldı. Bundan sonra 22 iyul 2016-cı il tarixdə qərar qəbul etdi ki, "AXA MBASK" mənə dəymiş ziyanı ödəməlidir. Amma sığorta şirkəti yenə də deyir ki, məhkəmə nə qərar verirsə versin pulunuzu ödəməyəcəyik. Sizdən xahiş edirəm bu məsələni araşdırın. Sığorta şirkəti 2 ildir 5 nəfərdən ibarət ailəmi qışın soyuğunda, qarlı-yağışlı günlərdə qəzalı evdə yaşamağa məcbur edir. Bu sığorta şirkəti qəti şəkildə ölkə qanunlarını saymır".

Məsələ ilə bağlı "AXA MBASK"-la əlaqə saxladıq. Şirkətdə məsələyə münasibət bildirən olmadı.

❑ E.MƏMMƏDƏLİYEV

# Sabirabadda bazar davası

## Köçkünlər kömək istəyir: "Sahibkar Yaqub Yaqubov Kürün qorunma zolağında heyvan bazarı açmaqla bizi çörəksiz, işsiz qoyacaq"

**Sabirabadda məcburi köçkünlərlə sahibkar Yaqub Yaqubov arasında heyvan bazarına görə dava başlayıb. Redaksiyamıza, bir çox dövlət orqanlarına məktublar yazan köçkünlər vaxtilə zavod direktoru olmuş Yaqub Yaqubovun onların bazarını ləğv etmək istəməsindən narazıdırlar. Köçkünlər yazır ki, doğma yurd-yuvalarından didərgin düşüb Sabirabad rayonunun Şəhriyar və Axtaçı kəndlərində məskunlaşıblar.**

Köçkünlər müraciətlərində qeyd edirlər: "Yaşadığımız düşərgəni dövlət tikib verib bizə. Gündəlik dolanışığımız da Şəhriyar kəndində yerləşən heyvan bazarından çıxır. Heyvan bazarında təxminən 60 nəfər məcburi köçkün işləyir. Bizlər xırda və iribuynuzlu heyvan alıb-satmaqla dolanırıq. Həftədə 1 gün - şənbə günü bazar olur. Alver edib ailəmizi saxlayırıq. Bizi Yaqub Yaqubov adında keçmiş pambıq zavodunun müdiri işsiz, çörəksiz qoymaq istəyir. Bakıdakı universitetlərdən birinin filialının prorektoru Saleh adlı şəxsin adından istifadə edərək Qaragüney kəndi ərazisində heyvan bazarı açmaq istəyir. Deyir "yuxarıdan deyiblər ki, get heyvan bazarı aç. Köçkünlər qələt edirlər". Yaqub Yaqubovun Kür çayının qorunma bəndinin yanında mebel mağazası vardı. 2 ay əvvəl Kürün bəndini yarıb ərazini zəbt etmək istəyirdi. Bəndi də Yaqub Yaqubovun özünə bərpa elətdirdilər. Həmin mağazanı şadlıq evi etmək istəyir. Heyvan bazarını da şadlıq evinin yanında açır. Yaqub Yaqubov çox maraqlı proyekt hazırlayıb. Əgər arzusu reallaşsa, kənardan baxanda maraqlı mənzərə görünəcək: Şadlq evi və heyvan bazarı. Bizim ölkə başçısı kimi Sizə müraciət etməkdə məqsədimiz odur ki, sahibkar Yaqub Yaqubov Kürün qorunma zolağında heyvan bazarı açmaqla bizi çörəksiz, işsiz qoyacaq. Elə indidən bizim vəziyyətimizi nəzərə alın başqa yerə köçürün".

❑ E.HÜSEYNOV

**Ölkədə valyutadəyişmə məntəqələrinin ləğvi xarici valyutanın dəyişdirilməsində şənbə-bazar günləri (banklar işləmədiyi günlərdə) çətinlik yaradırdısa, hazırda durum daha da ağırlaşdırılıb. Çünki banklar dollar və avro satışını tamamilə dayandırıblar. Ekspertlər bunun turizmə ciddi təsir göstərdiyi qənaətindədirlər. Hətta bildirilir ki, ölkəyə gələn turistlər istifadə etmədikləri manatları gedərkən dollara çevirə bilmirlər. Bu isə turizm potensialını da azaldır. Üstəlik, aeroportda da dollar satılmır.**

# Ölkədə dollar satılmaması yenicə ayaq tutan turizmi büdrədir

## Ekspertlər bildirirlər ki, milli valyutaya olan inamı maliyyə sektorundakı qısamüddətli iqtisadi effekt verə biləcək sərt monetar siyasətə qurban vermək olmaz...

Ekspert Elşad Məmmədov məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, son günlər valyuta bazarında baş verən gərginlik, sözsüz ki, ölkə hüdudlarından kənara getmək istəyən vətəndaşlar üçün də ciddi problemlərə səbəb olmaqdadır: "Belə ki, son məlumatlara görə, hətta ölkənin aparıcı bankları belə dollar satışını dayandırmışlar. Xarici ölkələrə turizm səyahətlərinin tam əksər hallarda xeyli müddət əvvəlcədən planlaşdırılmasını və buna görə də bu səyahətlərin ləğv edilməsinin çətinliyini nəzərə alsaq, həmin vətəndaşların ciddi problemlərlə üzləşdiyini qətiyyətlə söyləyə bilərik. Beləliklə, ölkənin bank sektorunun ölkə əhalisinin əhəmiyyətli hissəsinə qarşı qəbuledilməz münasibətinin şahidi oluruq. Həqiqət naminə, demək lazımdır ki, hazırkı iqtisadi durumda ölkə əhalisinin ölkə hüdudlarından kənara yola düşməsi makroiqtisadi cəhətdən iqtisadiyyat üçün əlavə yükdür. Bununla belə, bu vətəndaşların hüququdur və aidiyyəti qurumlar ölkə vətəndaşlarının həm də vergi ödəyiciləri kimi həmin qurumların normal şəkildə fəaliyyət göstərməsinin təminatçısı olduqlarını nəzərə aldıqda, vətəndaşların bu hüquqlarından istifadə etmələrinə yardımçı olmalıdırlar".

Ekspertin sözlərinə görə, maraqlı məqam həm də ondan ibarətdir ki, bank-maliyyə sektoruna nəzarət etməli olan, habelə istehlakçıların hüquqlarının müdafiəsinə görə birbaşa məsuliyyət daşıyan çoxsaylı müvafiq qurumlar bu məsələyə qəribə münasibət göstərirlər: "Ölkə vətəndaşlarının xaricə gedərkən onlarda olan milli valyutanın mövcud qanunvericilik çərçivəsində, banklar vasitəsilə həmin ölkələrdə azad konvertasiya olunan valyutalara dəyişmək hüququnun faktiki olaraq tanınmaması son nəticədə milli valyutanın ölkə daxilində belə azad konvertasiya olunan valyuta olması məsələsini şübhə altına qoymaqla, bütövlükdə ölkənin maliyyə bazarına çox ciddi mənfi təsir göstərə bilər. Son illər ərzində Azərbaycan iqtisadiyyatının nailiyyətlərindən biri də məhz ölkə ərazisində milli valyutanın istənilən həcmdə azad konservasiya olunması idi. Bu, uzun müddət ərzində qazanılan milli valyutaya olan inamı maliyyə sektorundakı qısamüddətli iqtisadi effekt verə biləcək sərt monetar siyasətə qurban vermək, fikrimcə, yolverilməzdir. Üstəlik də, nəzərə alınmalıdır ki, xarici dövlətlərə yola düşən bir çox insanlar bu səyahətləri heç də istirahət məqsədi ilə deyil, müqəddəs ziyarət, müalicə və digər zəruri məqsədlərə görə həyata keçirirlər, ölkənin bank-maliyyə sektoruna aid qurumlar, maliyyə bazarındakı bu anlaşılmaz vəziyyəti tezliklə aradan qaldırmalıdırlar".



Paytaxtdakı turizm şirkətlərinin rəhbərləri də xarici valyutanın satılmamasının ölkədən xaricə gedənlərin sayını azaltdığı qənaətindədirlər. Bildirilir ki, manatın ötən il baş verən iki devalvasiyası turizm sektorunda ciddi problemlər yaradıb. Turizmçilər bildirirlər ki, müştərilər isə kəskin azalıb. Üstəlik, dolların satılmaması əlavə problem deməkdir. Şirkət rəhbəri Məmed Əliyev musavat.com-a açıqlamasında deyib ki, dolların bahalaşması səbəbindən turlar, biletlər xeyli bahalaşıb və ölkədən səyahət etməyə gedənlərin sayında kəskin azalma var: "Ölkəyə gələnlər çoxdur, gedənlərin sayı azalıb. Qiymətlər bahadır deyə, səyahətə getmirlər".

Qeyd edək ki, bəzi ekspertlər bildirirlər ki, bank rəhbərləri durumdan istifadə edərək dolları qara bazara yönəldərək əlavə qazanc götürməkdə israrlıdırlar. Belə ki, qara bazarın çiçəklənməsində məhz bank sahibləri maraqlıdırlar. Bankların dollar satmaması isə qara bazarda məzənnəni sürətlə artırır...

❑ **Röya RƏFİYEVA**

# Avtobusda yaşayan məcburi köçkün ailəsi...

## "Köçəri olmaqdan bezdiyimiz üçün burada yaşayırıq"






**"Məzahir, köynəyini paltaryuyan maşına at... Qapı açıq qalıb, toyuq-cücə evə girib. Şərait yoxdur deyə, qalmışam belə. Soyuducumuz da işləmir, yeməklər zay olur". Xatirə xanım danışa-danışa evi səliqəyə saldıqdan sonra bizi içəri dəvət edir: "Əyləşin-əyləşin. Şəraitli evim olsaydı, sizi başqa cür qarşılayardım.**

Bu dəfə sizi Xatirə İsmayılovanın həyat hekayəsi ilə tanış edəcəyik. Xatirə xanımın 33 yaşı var. 2002-ci ildə Rahib İsmayılovla ailə qurub və 4 övladı var. Hazırda ailəsi ilə birlikdə İsmayıllıda qaçqın və məcburi köçkünlər üçün salınmış Qarabağ qəsəbəsində, köhnə, tullantı kimi atılmış bir avtobusda məskunlaşıb.

Müsahibim söhbətə həyat yoldaşı ilə tanışlıq hekayəsindən başlayır: "Həyat yoldaşımın 40 yaşı var. Tanışlığımız maraqlı olub. Mən 11-ci sinifdə oxuyurdum. Nənəmgilə getmişdim. Əmimin yoldaşı ilə evdə xalça toxuyurdum. O isə həyətdə usta işləyirdi. Orada məni görüb bəyənib. Məni bəyəndiyini əmimin yoldaşına demişdi, sonra elçilik oldu. Həyat yoldaşımın valideynləri məni istəmirdi, amma gəlib valideynlərimdən məni halallıqla istəmişdilər. İki ilə yaxın nişanlı qaldıq. Biz nişanlanandan sonra qayınatam infarkt keçirdi, yataq xəstəsi oldu. Ona görə də yoldaşım məni qaçırtdı. Yoldaşımın ailəsinin İsmayıllının mərkəzində 4 otaqlı bina evi vardı. Rahib evin kiçik oğlu idi. Mən gəlin gələndən 40 gün sonra evdə problem yaşandı, bizi evdən çıxardılar. Biz də Bakıya xalamın yanına getdik, 3 il orada yaşadıq, ərim dülgər işləyirdi. Sonra yoldaşıma zəng gəldi ki, atan əməliyyat olunur, gəl. Müdiri də yoldaşıma demişdi ki, getsən, qayıtma. Hər şeyimizi yığıb qayıtdıq. Qayınatamın xəstəliyinə görə, 4 otaqlı ev satıldı. 9 il kirayələrdə qaldıq. Köçəri olmaqdan bezdiyimiz üçün bu avtobusda yaşayırıq. Torpaq aldıq. İndi ev tikmək istəyirik, amma imkanımız yoxdur. Qar, yağış yağanda hamısı otağa dolur".



### "Biz Allahımızı sevirik, ondan qorxuruq"

Xatirə xanım deyir ki, həyatında çətinliklər çox olub. Amma onlara dözməyi bacarıb, Allaha sığınıb: "Ailəmiz ipdən asılıdır. Sevgi olduğu üçün qopmur. Biz Allahımızı sevirik, ondan qorxuruq. Heç vaxt ayrılmaq haqda düşünməmişik. Yoldaşım mənə qarşı çox yaxşıdır, qəddar deyil, qışqırmaz, əl qaldırmaz. Mən də onu gözümün üstə saxlayıram. Heç vaxt Rahiblə evlənməyimə peşman olmamışam. Bəziləri elə başa düşdü ki, biz mətbuata dilənmək üçün çıxmışıq. Amma elə deyil. Allaha şükür, həyat yoldaşım var. Hazırda sexdə işləyir, qazanır, yeməyə çörək tapırıq. Qış vaxtı isə iş olmur. Qonşular yardım edir. Bəziləri deyir ki, oradan çıx, kirayə qal. Mənim gəlirim yoxdur, necə kirayə qalım?"

X.İsmayılova sosial yardım ala bilməməsindən şikayətçidir: "Ünvanlı sosial yardım almıram. Yardım almaq üçün dəfələrlə rayondakı mərkəzə müraciət etmişik. Bizi get-gələ salıblar. Yoldaşım Mehdiabadda sexdə şərik işləyirdi. VÖEN yoldaşımın adına açıldı. 150 manat borc yığıldı. Onu bəhanə etdilər ki, ödəməlisiniz. Qanun tələb edir, ödəməliyik. Amma indi imkanımız yoxdur. Bir də iş yerindən arayış istəyirlər, iş yoxdur, arayışı haradan alaq?

Yoldaşımın üç barmağı kəsilib, rayonda işləyəndə olub. Təqaüd almaq üçün müraciət etdik, dedilər əlillik pensiyası almaq üçün gərək iki əlin olmasın. Mən də ağır əməliyyat keçirmişəm, ağır qaldıra bilmirəm. Hamamımız da yoxdur. Uşaqları vedrə ilə su gətirib vannada çimizdirirəm, hamamımız vannadır.

Mən 3 əsgər böyüdürəm. Uşaqlarımı müayinə etdirməyə pul tapmıram. Şəraitimizi görürsünüz, uşaqlara mikrob düşə bilər, yüz cür xəstəlik taparlar. Müalicə etdirməyin də mənası yoxdur. Sağlam adam burada xəstələnər. Qaz yoxdur. Su arx suyudur, yığıram, torpağı dibinə çökəndən sonra istifadə edirəm. İki ilə yaxın içərisində qurbağalar olan quyudan istifadə etmişəm. Paltar yuyurdum, üzərimə qurbağalar hoppanırdı".

Xatirə xanım çətin günlər yaşasa da, üzü hələ də gülür. O, çətin günlərin arxada qalacağına inanır: "Bu günümə də şükür edirəm, namusum-qeyrətim üstümdədir. Bir ev problemim var, dövlətdən yardım alsam, evim də olar. Arzum evimin olmasıdır, bir də dövlətdən balalarımın haqqını ala bilməkdir. Başqa nə arzum ola bilər? 4 gözəl övladım var. İstəyirəm ki, onları sağlam, vətənə faydalı vətəndaş kimi böyüdüm".

### "Evə gəldim, şəraitsizlikdən halım pisləşdi, təcili xəstəxanaya apardılar"

Müsahibimiz deyir ki, ailəsi olmasa, çətin günlərə dözə bilməz: "Üç övladım Ağdam qaçqın məktəbində oxuyur. Böyük oğlum Ömərin oxumağa həvəsi yoxdur, onu peşə məktəbinə göndərəcəyik. Qızım isə dərslərindən beş alır, müəllimləri çox razıdır. Yaxşı ki, övladlarım və həyat yoldaşım var. Onlar olmasa, bu çətinliklərə dözə bilmərəm. Övladlarımla nəfəs alıram. Həyat yoldaşımı sevirəm. O, mənim və övladlarımın bir parçasıdır. Həyat yoldaşım olmadan qala bilmərəm. Xəstəxanada ailəmdən kənar qala bilmədim. Evə gəldim, şəraitsizlikdən halım pisləşdi, təcili xəstəxanaya apardılar. Elə bilirdim ki, uşaqlarıma sığınsam, sağalacağam. Artıq övlad dünyaya gətirə bilməyəcəm. Ona görə də onlar mənim hər şeyimdir. Birinin barmağı qanasa, ürəyim parçalanır".

Xatirə ilə söhbətə yekun vurub, yeni evlərində görüşmək ümidi ilə vidalaşırıq.

❑ **Könül İBRAHİM**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 196 (6517) 5 sentyabr 2016

# Dünyanın ən nadir xəstəlikləri

## Biri suya girəndə dərdə düşür, o biri çörək yeyəndə...

**Hər gün dünyada milyonlarla insan hansısa xəstəliyin qurbanı olur; ya hansısa xəstəliyə yoluxur, ya da onun müalicəsinə başlayır. Bəşəriyyət var olduqca insanlar da səhhət, sağlamlıq problemlərindən əziyyət çəkirlər. Və mükəmməl sağlığın qiyməti insan ancaq yatağa düşəndə anlaşılır...**

İndi kiminlə rastlaşsan, hamı orqanizmindəki hansısa problemdən danışır. Xüsusən də yaş 35-40-ı ötübsə, hər kəsin dilində bir xəstəlik hekayəsi var mütləq. Amma tibb dünyası bu günə qədər çox nadir görülən, milyonda bir insanda rast gəlinən xəstəlik tarixçələrinə də şahidlik edib. Biz də onların bəzilərini yada salıb, sıradan xəstəliklərlə mücadilə edənlərə bir "təsəlli" verək istədik.

**Sən çox nəhəng adamsan, lap... fil kimi...**

Çünki məlumatımız olmayan, qəribə, nadir xəstəliklər də tibb elmində geniş yayılıb. Hər il bu xəstəliklərin siyahısı genişlənir. Məsələn, keçən il tibbə məlum olmayan xəstəliklər bu il siyahıya daxil olur. Ya da 10 il əvvəl mövcud olan qəribə xəstəliklər artıq siyahıda yoxdur.

Başlayaq fil xəstəliyindən. Tibdə elefantiyazis adlanan xəstəliyin açması "kobudca genişlənən üzvlər"dir. Bu xəstəlik kobudca genişlənmiş, ya da şişmiş ayaqlar və qollara sahib dramatik insan fotoşəkillərindən bilinir. Əslindəsə fil xəstəliyi, tropik bölgələrdə görülən bir parazit xəstəliyidir. Bu xəstəlik dünya səviyyəsində hələ də 120 milyon insana təsir edir və bunların 40 milyonu bu xəstəliyin ciddi həddinə çatıb. İnfeksiyalı dişi ağcaqanad bir insanı dişlədiyində mikrofilarya deyilən qurd sürfələrini qana sala bilər. Mikrofilarya təkrar-təkrar törəyir və uzun illər boyu yaşaya biləcəyi qan dövranı yoluna yayılır. Sıx görülən xəstəlik əlamətləri infeksiya sonrası illər boyu görünmür. Parazitlər qan damarlarına yerləşdiyi kimi qan dövranını məhdudlaşdıra bilər və ətrafındakı toxumalarda qanın yığılmasına səbəb ola bilər. İnfeksiyanın ən ümumi görülən əlamətləri həddindən artıq dərəcədə böyümüş qollar, qıçlar, genitalya və sinələrdir.

**Bu xəstəlik insanı 13 yaşında öldürür**

Daha bir xəstəlik isə progeria adlanır. Bu, 80 yaşındakı uşaq sindromu adlanır. Progeriaya bir uşağın genetik şifrəsindəki kiçicik, sadə bir qüsur səbəb ola bilər, amma dağıdıcı və həyatını dəyişdirən nəticələrə gətirib çıxarar.

Orta hesabla bu xəstəliklə doğulan bir uşaq 13 yaşında ölmüş olacaq. Bu şəxslərin bədənləri normal yaşlanma müddətinə görə daha sürətli yaşlanır. Bu müddətdə ümumiyyətlə erkən saç tökülməsi, ürək xəstəliyi də müşahidə edilir. Progeria nadir görülən bir xəstəlikdir və hazırda dünya üzrə bu xəstəliyin 48 nəfər daşıyıcısı var.



Yəqin ki, zaman-zaman xəbərlərdə qurd adam sindromu ilə bağlı xəbərlərə rast gəlirsiz. Bu xəstəliyə tutulan insanlara "qurd insanlar" deyirlər. Onların iti dişləri və pəncələri olur. Meksikada bu xəstəliyin daşıyıcısı olan xeyli insan var. Onların üzləri və bədənlərinin üst hissələri tüklərlə bağlıdır.

Daha bir xəstəlik isə mavi bədən xəstəliyidir. Mavi insanlar olaraq bilinən böyük bir ailə 1960-cı illərə qədər Kentuckydakı Troublesome dərəsi ətrafındakı təpələrdə yaşayıb. Çoxu 80 yaşını keçmiş və mavi bədən xaricində ciddi bir xəstəlik keçirməyiblər. Bu xüsusiyyət nəsildən-nəslə köçürülüb. Bu vəziyyətdəki insanlar mavi, ərik bənövşəyi, mavi, ya da az qala bənövşəyiyə yaxın bədənə sahibdirlər.

Vampir xəstəliyi barədə xüsusi danışmağa ehtiyac yoxdur. Çünki bunun günəşdən acı çəkmək olduğunu bilməyənlər azdır. Bu xəstəliyə tutulan insanların bədəninə günəş dəysə, bədənləri dərhal qabarır. Bəzilərinin bədəninə günəş dəyən kimi dəriləri ağrıyır və şişir. Doğrudur, vampir kiminsə qanını içənlərə deyilir. Onlar qan içib tabutlarda yaşamırlar, amma gün işığına qarşı allergiyaları var.

Su allergiyası: Bu günə qədər yalnız 30 adamda görülən xəstəliyə tutulanlar, damızdırılmamış suda olan iyonlara qarşı həddindən artıq həssaslar. Xəstələr nə rahatca su içə bilir, nə də duş ala bilirlər.

Alisa möcüzələr diyarında sindromu. Belə bir xəstəlik də var. Bu xəstəliyin daşıyıcıları insanları, bədən üzvlərini, heyvanları və heyvan olmayan obyektləri həqiqətən olduqca kiçik hiss edirlər. Ümumiyyətlə uzaqda görülən bir obyekt eyni zamanda yaxında da qəbul edilə bilər. Məsələn, it, bir siçan miqyasında görülə bilər, ya da normal bir avtomobil ölçüyə çəkilmiş kimi görünə bilər.

**Torpaq yeyir, daş yeyir, gil yeyir, amma yemək yemir**

Keçək pika xəstəliyinə. Bu da yemək olmayan maddələri yemə impulsudur. Bu insanların torpaq, kağız, yapışdırıcı və gil kimi yeyilməyən maddələri yeməyə inanılmaz impulsları var. Bunun mineral əskikliyilə əlaqəli olduğu bildirilir. Amma həkimlər xəstəliyin gerçək səbəbini və həllini tapa bilməyiblər.

Xarici aksent sindromu: Beyindəki danışma bölgəsinin ziyan görməsi nəticəsi adamın normal aksentini itirib fərqli aksentlə danışması sindromu.

**Ətinin çürüdüyünə inanan xəstələr və... intihar**

Cotard. Bu xəstəliyi yaşayan insanlar qəribə də olsa öldüklərinə, hətta ətlərinin çürüdüyünə belə inanırlar. Nadir rast gəlinən bu xəstəlik intihara səbəb ola bilər.

Blaşko xətləri - olduqca nadir görünür və ilk olaraq 1901-də alman dermatoloqu Alfred Blaşko tərəfindən təqdim edilən, açıqlana bilməyən bir insan anatomiyası fenomenidir. Nə müəyyən bir xəstəlik, nə də bir xəstəliyin təxmin edilə bilən əlamətidir. Bir çox köçürülən və əldə edilən bədən, ya da mukoz xəstəliyi özlərini, lentlərinin vizual görünüşünü yaradan naxışlara görə izah edirlər. Onları daha müəyyən hala gətirən şey xəstədən, xəstəyə bənzər yaxınlıqda uyğunlaşmaladır, ümumiyyətlə, onurğa ətrafında V şəklində sinə, qarın və yan tərəflər ətrafında S şəklində forma götürər.

**Çox gülmək də xəstəlikdir**

Ölümünə gülmək: Yeni Ginedəki bir qəbilədə görülən xəstəlikdə adam idarəsizcə gülməkdən ötəri əvvəl bədən hakimiyyətini, ardından da həyatını itirir. Qəhqəhənin müddəti 3 aya qədər çıxa bilir.

Ən ilginci isə gedən cəsəd sindromudur. Bu xəstəliyin daşıyıcıları ölü olduqlarına inanırlar. Bu bir ağılı depressiya və intihar meylləri sindromudur. Belə ki, bu vəziyyətdə xəstə hər şeyini itirmiş olmaqdan şikayət edir. Onlar ehtiraslarını, bədəninin bir qismini ya da hamısını, ümumiyyətlə öldüyünü və gedən bir cəsəd olduğunu düşünürlər. Şizofreniyaya tutulanlar da öldüklərini, ətlərinin çürüdüyünü, bəzən də həyati orqanlarının ya da qanının olmadığını düşünürlər.

Bəzən bu, xəstənin bədənində qurdların gəzişdiyini iddia etmə dərəcəsinə qədər uzanar. Bəzi xəstələr bunu sübut etmək üçün intihar edər. Olduqca az rast gəlinən sindrom 2008-ci ildə 53 yaşında filippinli bir qadında görüldü. Ölü olduğunu söyləyən qadın ailəsindən meyitxanaya aparılmasını istəmişdi. "Gedən cəsəd sindromu" xəstələrinə dərman və beyinə elektrik şokuyla müalicə tətbiq olunur.

Misofoniya. Bu xəstəlik yemək yeyilən zaman ağızdan gələn səslərə qarşı yaranan əsəb xəstəliyidir. Amsterdamda araşdırma aparan Hollandiyalı alimlər 42 insanla görüşmüş və bu onların hamısının bu səsə eyni reaksiyanı verdiyini aşkar etmişlər. Bu insanlar əsasən səs gəldiyi anda qulaqcıqlardan istifadə edir və ya həmin yerdən uzaqlaşmağa çalışırlar.

Gülməli görünə bilər, amma nadir xəstəliklərdən biri də "sıçrayan fransız narahatlığı" adını daşıyır ki, bu da qəribə reflekslər deməkdir. Xəstəliyin əsas cəhəti xəstələrin gözlənilməyən bir səs-küy, ya da görünüşə görə tez-tez diksinmələridir. Bu, insanın arxasından biri gələndə diksinməsi deyil. Bu nizamsızlığa sahib xəstələr qollarını şiddətlə yelləyir, qışqırıb eyni cümlələri təkrar edirlər. İlk olaraq Fransa-Kanada mənşəli Maine oduncularında aşkarlanmış xəstəlikdə qəribə reflekslər özünü göstərir.

Otello. Adını Ulyam Şeksprin "Otello" əsərindən alan bu xəstəlik sevdiyi birini xəstəlik dərəcəsində qısqanma xəstəliyidir.

**Onlar nadir xəstəliklərinə görə məşhurlaşaraq pul qazanıblar**

1862-ci ildə doğulan Jozef Merrickin fiziki bir narahatlığına görə 5 yaşında bədən üzvləri böyüməyə başladı. Qısa müddətdə ağlasığmaz bir görünüşə büründü. 1884-cü ildən etibarən Merrick görünüşündən pul qazanmağa başladı. Pul qazandığı nümayişlərdən birində onu görən həkim onu müalicə etməyə başladı. Jozef Merrickin Proteus sindromundan əziyyət çəkdiyi ortaya çıxdı. David Lynchin Fil Adam filmində baş rol ifaçısı olub. Merrick 27 yaşında yuxuda olan zaman vəfat edib.

Cozefina Myrtle Corbin ABŞ-ın Tennesse əyalətində 1868-ci ildə 4 ayaqlı olaraq doğulub. Buna ana rəhmindəki əkizinin ayrılmaması səbəb olub. Corbinin 4 ayağı simmetrik deyil. İçəridə qalan qıçları daha kiçikdir. Bir müsahibəsində Corbin içəridəki kiçik ayaqları ilə də hərəkət edə bildiyini, ancaq gəzmək üçün zəif olduğunu söyləmişdi. Corbin daha sonra 4 qız və 1 oğlan anası olmuşdur. Onlarda isə belə hala rast gəlinməyib.

1884-cü ildə İsveçrədə doğulan Gabriella Füller bədəninin alt qismi olmadan doğulub. 1900-cü ildə Parisdə bir sirk şousuna qatılır. İki dəfə evlənən Gabriellanın vücudunun üst qismi qüsursuz bir şəklə sahib idi. Ancaq alt qismindən məhrum bir şəkildə yaşamaq vəziyyətində qaldı.

1890-cı ildə Polşada doğulan Stephan Bibrovski normal bir ailənin uşağı idi. Nadir görülən genetik xəstəliyə görə bütün bədənində qalın tüklər çıxdı. Orta əsrdən bu vaxta qədər bu xəstəliyə yalnız 50 nəfərdə rast gəlindiyi deyilir. Bir alman tərəfindən kəşf edilən Bibrovski Avropa səyahətinə çıxır. Orada üzündəki tüklərlə aslan kimi göründüyü üçün ona Lion sözündən törəyən Lionel ləqəbi verilmişdi. Lionel 5 dil bilirdi.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
Son səhifə
N 196 (6517) 5 sentyabr 2016

# 7 yaşlı qızın dilini pişik açdı

İngiltərənin Mançester şəhərində nadir danışmamaq xəstəliyinə tutulan və heç kimlə danışmayan 7 yaşındakı Lorcan Dillon pişiyinin sayəsində xəstəliyinə qalib gəlib. O, 7 ildən sonra nəhayət ki, danışmağa başlayıb. Türkiyə mətbuatının yazdığına görə, danışıq qabiliyyəti olmasına baxmayaraq bu uşaq heç bir fikrini ifadə edə bilmirdi.

2 yaşına çatanda ailəsi də daxil olmaqla heç kimlə danışmayan bu uşaq son iki ilini yanından ayırmadığı pişiyi, yeganə dostu Cessi ilə keçirib. Və elə ilk cümləsini də pişiyinə söyləyib. "Səni sevirəm" dediyi pişiyindən sonra uşaq anasına və atasına da müəyyən sözlər deyib. Valideynləri bu hadisəyə görə çox sevinib və həyatları boyunca Cessiyə minnətdar olacaqlarını deyiblər.





## Yaşı 23-dür, ayağının ölçüsü isə 50...

**23 yaşındakı Emma Cahill Avropanın ən böyük ayaqlarına sahibdir. Geyinmək üçün ayaqqabı tapmaqdan şikayətlənən gənc qız görənləri heyrətə gətirir. Çünki onun ayaqları nə az, nə çox - düz 50 nömrədir.**

Emma dünya üzrə ancaq Almaniyadakı xüsusi bir mağazada özünə ayaqqabı tapa bilir. Qızın ancaq bir cüt topuqlu ayaqqabısı var. Maraqlıdır ki, kişilər də onunla ünsiyyətdən çəkinir və onu özlərinə bənzədirlər.

"Uzun boylu olmağı sevirəm, amma bu sevgi həyatımda mənə heç də yardımçı olmur. Cəmi bir dəfə məndən uzun birisi ilə tanış oldum, amma onunla boyumuzdan başqa ortaq cəhətimiz yox idi" - deyə Emma bildirib.

Emma 9 yaşında olanda anası ilə eyni ölçüdə ayaqqabı geyinirmiş. Gənc qızın ayaqları yeniyetməlik illərində hər il bir ölçü artıb: "Ayaqlarımın böyüməsi dayananda xeyli sevinmişdim. Qorxurdum ki, böyüməyə davam edəcəklər və qayıq kimi olacaqlar".

## İnternet işə xeyirdən çox ziyan verir

**Amerikalı psixoloqlar müəyyənləşdiriblər ki, iş prosesində fasiləsiz internetin olması məhsuldarlığın keyfiyyətinə təsir edir. Rusiya mətbuatının yazdığına görə, insanlar hər gün səhər işə gələndə onları maraqlandıran xəbər saytlarına, qəzetlərin on-line versiyasına, birja məlumatlarına baxır. Bu zaman diqqəti yayınan şəxs işinə tam adaptasiya oluna bilmir.**

Məlum olub ki, həttə son illər sosial şəbəkələrə aludəlik, insanların virtual ünsiyyəti də iş gününün ən azı bir saatını "oğurlayır". Ona görə də dünyanın bir çox ciddi iş yerlərində sosial şəbəkələrə, əyləncə saytlarına giriş qadağan edilib.

# Yatanda amerikalı idi, oyananda isveçli oldu

**Amerikadakı bir motel otağında baygın vəziyyətdə tapılan Maykl Botrayt oyandığı zaman özünü isveçli kimi təqdim edib. Hazırda ancaq İsveç dilində danışa bilən 61 yaşlı adam keçmişini xatırlamır. Amma kişinin üstündəki şəxsiyyət vəsiqəsində adı Maykl Tomas Botrayt, özü isə Floridalı olaraq qeyd edilib. Həkimlər isə ona "müvəqqəti planetiar amneziya" diaqnozu qoyublar.**

Fiziki və mənəvi travma nəticəsində ortaya çıxan bu xəstəliyin özəllikləri yaddaş itkisi, ani və planlaşdırılmamış səfərlər, habelə hər hansı bir kimliyə bürünmə ola bilər.

Maraqlıdır ki, 61 yaşlı kişi iki dəfə evli olduğunu desə də, polislər onun keçmiş həyat yoldaşlarını, ümumən isə keçmiş həyatına dair heç nə tapa bilməyiblər. M.Botrayt hazırda ingilis dilini də unudub, ancaq isveç dilində danışır. Bundan başqa, avtobusa minmək, puldan istifadə etmək kimi gündəlik vərdişlərini də unudub. Bu qəribə xəstənin necə yaşayacağı isə sual altındadır.





## Qədəhləri niyə toqquşdururuq...

**Qədim zamanlarda bir insanın düşmənini yeməyə dəvət edib ona zəhərli içki təqdim etməsi təbii hal sayılırdı. Ev sahibi içkinin zəhərsiz olduğunu sübut etmək üçün öz içkisini havaya qaldırar və qonağın içkisindən bir qurtumun öz qədəhinə tökülməsini istəyərdi.**

Sonra eyni anda içkilərini içərdilər. Qonaq belə vəziyyətdə ev sahibinə etibarını göstərmək üçün qədəhini ev sahibinin yuxarı qaldırdığı qədəhə yüngülcə vurar, "çin" səsi ilə içkinin sınağına gərək olmadığını eyham etmiş olardı.




**QOÇ** - Yalnız maliyyə məsələlərində uğurların gözlənilir. Odur ki, əsas gücünüzü bu istiqamətə yönəldin. Kiməsə borc vermək və ya almaq fikrindən uzaq olun. Axşam başqa ünvana getməyin.

**BUĞA** - Bir tərəfdən cəhdlərinizin boşa çıxması, digər tərəfdənsə ətrafınızda olanların naxələfliyi ovqatınızı poza bilər. Odur ki, müəyyən qədər təcrid olunub öz aləminizə qapılın.

**ƏKİZLƏR** - Ulduzlar bu təqvimi daha çox istirahətə ayırmağı tövsiyə edir. Ağır fiziki və zehni işlərə girişməyin. Saat 16-dan sonra qonaq getməyə, ikili gəzintilərə aludə olmağa dəyər.

**XƏRÇƏNG** - Ümumi məziyyətlərinə görə qənaətbəxş təqvimdir. Xüsusən də saat 14-16 aralığında hansısa xoş bir hadisəylə rastlaşacaqsınız. Ailə üzvlərinizlə, həmkarlarınızla mehriban davranın.

**ŞİR** - Bəxtinizdə ilahi bir təqvim durub. Bu səbəbdən də hansısa müqəddəs yeri ziyarət etmək, kimsəsizləri sevindirmək böyük savab qazandıra bilər. Axşam maraqlı insanlarla görüşünüz mümkündür.

**QIZ** - Səhhətlə bağlı nasazlığınız olsa da, bu, ovqatınızı pozmayacaq. Əksinə, gün ərzində iştirakçısı olduğunuz proseslər sizi xeyli fərəhləndirəcək. Ətrafınıza yaxşı insanlar toplaşacaq.

**TƏRƏZİ** - Çox düşərli gündür. Boş durmaqdansa ən xırda şansdan belə istifadə edin. Tərəfdaşlıq zəminində, perspektivli sövdələşmələrdə uğurlarınız artacaq. Özünüzü soyuqdəymədən qoruyun.

**ƏQRƏB** - Həddindən ziyadə uğurlu gündür. Ürəyinizə yaxın adamlarla rastlaşmağınız, həmçinin sevindirici təkliflər almağınız uzun müddət yadınızda qalacaq. Uzaq yola çıxsanız, ehtiyatlı olun.

**OXATAN** - Maliyyə vəziyyətiniz imkan versə, özünüzə təzə geyim alın. Çünki xeyli müddət belə fürsət ələ düşməyəcək. Göy qübbəsi kənar təsirlərə aludə olmamağı, riskdən qorxmamağı tövsiyə edir.

**OĞLAQ** - Ulduzların düzümü rahatlığı daha çox səfər və qonaqlıqlarda tapa biləcəyinizdən xəbər verir. Çünki bu gün sizə çoxlu adamlarla təmasda olmaq vacibdir. Tənhalığa qurşanmayın.

**SUTÖKƏN** - Saat 15-ə qədər qarşılıqlı münasibətlərdə gərginlik gözlənildiyindən tədbirli olun. Bunu bacarsanız, ulduzlar sonrakı müddətdə sizə xüsusi zövq verəcək. Təzə xəbər də eşidəcəksiniz.

**BALIQLAR** - Sağlıq durumunuzda və fəaliyyət istiqamətində problemləriniz gözlənilsə də, qalan işləriniz uğurlu olmalıdır. Hətta günün ikinci yarısında qazanmaq ehtimalınız da var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qadınlar yaddaşını daha tez itirir



**İngiltərənin Hertfordshire Universitetinin apardığı araşdırmaya görə, yaddaşsızlıq kişilərə nisbətən qadınlarda daha sürətlə irəliləyir.**

Mütəxəssislər 828 kişi ilə 1.238 qadını əhatə edən 15 ayrı araşdırmanı qarşılaşdırıb. Normal durumda hafizə və şifahi ifadə testlərində kişilərdən daha yaxşı nəticə göstərən qadınlar yaddaşsızlıq məsələsində güclü cinsdən geri qalır. Araşdırmanın nəticəsinə görə, qadınların beyni kişilərə nisbətən çox zəifdir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750